Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

# ABDULLA ŞAİQ

Teymur Əhmədov



83.3(5Aze)
Ə 36

**Teymur Əhmədov**

# ABDULLA ŞAİQ

**Kitab-albom**

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 59604

2015-fond

Bakı - 2009
«E.L» Nəşriyyat Poliqrafiya Şirkəti MMC

XX əsr Azərbaycan ədəbiyyatının təşəkkül tapıb inkişaf etməsində şair, nasir və dramaturq kimi Abdulla Şaiqin böyük əməyi vardır. Onun Azərbaycanda uşaq ədəbiyyatının xüsusilə milli uşaq dramaturgiyasının yaranmasında misilsiz xidmətləri olmuşdur.

Bir əsrə yaxındır ki, Azərbaycan xalqının neçə-neçə nəsli Abdulla Şaiqin uşaqlar üçün müxtəlif janrlarda qələmə aldığı gözəl sənət nümunələrindən faydalanıb və indi də faydalanmaqdadır. Abdulla Şaiq Azərbaycanın elmi və ədəbi mühitində sanballı ədəbiyyatşünas və gözəl bədii tərcümə ustası kimi də yaxşı tanınır.

Abdulla Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qismi Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olmuşdur.

Ali və orta təhsil məktəbləri üçün onlarla dərsliyin müəllifi olmuş Abdulla Şaiqin uzunmüddətli pedaqoji fəaliyyəti milli təhsilimizin yeni mərhələyə yüksəlişində mühüm rol oynamışdır.

**Heydər Əliyev**
*Bakı şəhəri, 24 fevral 2001-ci il*

**Azərbaycan Respublikası**
Mədəniyyət və Turizm Nazirliyi

Layihənin rəhbəri
ƏBÜLFƏS QARAYEV

Elmi məsləhətçilər
SEVDA MƏMMƏDƏLİYEVA
LƏTİFƏ MƏMMƏDOVA

Redaktor
ÜLKƏR TALIBZADƏ

**Teymur Əhmədov.**
**Abdulla Şaiq.** Bakı, «E.L» Nəşriyyat Poliqrafiya Şirkəti MMC, 2009, səh.,124 foto-şəkilli.

Kitab XX əsr Azərbaycan ədəbiyyatının görkəmli sənətkarı—şair, maarif və mədəniyyət xadimi, uşaq teatrının təməlçisi Abdulla Şaiq Talıbzadənin həyatı, mühiti və yaradıcılıq fəaliyyətinə həsr olunmuşdur. Burada yazıçının oğlu – Abdulla Şaiq mənzil muzeyinin ilk direktoru, akademik Kamal Talıbzadəyə də müəyyən yer ayrılmışdır. Kitab geniş oxucu auditoriyası və ədəbiyyatsevərlər üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-438-58-1

© Teymur Əhmədov, 2009



*Vəqta ki bulud, duman görünməz,*
*Qalmaz daha zülmdən nişanə,*
*Yerlərdə bəşər üzü sürünməz,*
*Qurd-quş sığınar bir aşiyanə,*
*Yad et məni-şaiqanə yad et!*

# Abdulla Şaiq Talıbzadə

XX əsr Azərbaycan ictimai fikri tarixində Abdulla Şaiq Talıbzadə görkəmli yer tutur. O öz dövründə xalq müəllimi, şair, nasir, dramaturq və tərcüməçi kimi tanınmışdır. Abdulla Şaiq əlinə qələm aldığı gündən ömrünün sonunadək, təxminən altmış il yaratdığı bədii əsərlərlə milli ədəbiyyatımızın zənginləşməsinə çalışmış, ədəbi fikrin, maarif və mədəniyyətin inkişafına müəyyən təsir göstərmişdir.

Abdulla 1881-ci il fevralın 25-də Zaqafqaziyanın mədəni mərkəzi Tiflisdə Axund Molla Mustafa Talıbzadənin ailəsində doğulmuşdur. Axund Molla Mustafa Şərq mədəniyyətinə dərin bələd olan din xadimi idi. Tiflis qazısının müavini, sonra isə ruhani idarəsində Şeyxülislamın birinci müavini olmuşdur. O, oğlu Abdullanı gələcəkdə din xadimi görmək arzusunda idi. Odur ki, 1889-cü ildə anası Mehri xanım Tiflisdə altı sinifli şəhər müsəlman məktəbində ibtidai təhsilini yenicə başa vuran oğlunu özü ilə İrana--Xorasan şəhərinə aparıb urmiyalı Mirzə Yusifin yeni üsulla açılmış məktəbinə qoyur. Burada ərəb və fars dilini mükəmməl öyrənən Abdulla dini təhsil alsa da, dünyəvi elm və biliklərə, xüsusən klassik ədəbiyyata ciddi maraq göstərir. Fars dili və ədəbiyyatını, türk dilinin qrammatikasını, məntiq, psixologiya və ümumi tarix fənlərini dərindən-dərinə öyrənir. 16 yaşında ikən Məhəmməd Füzuli lirikasının təsiri altında qəzəllər yazır, rus satirik şairi Krılovun "Sazəndələr", "İki öküz", "Qarğa və tülkü", "Meymun və közlük" , "Qurd və pişik" təmsillərini fars dilinə tərcümə edir. Uğurlu tərcümələr onu bədii yaradıcılığa həvəsləndirir.

1900-cü ildə Xorasandan Tiflisə qayıdan Abdulla Şaiq burada qərar tuta bilmir. 1901-ci il aprelin 22-də atasına maddi və mənəvi kömək məqsədi ilə Bakıya gəlib burada müəllimlik hüququ almaq üçün imtahana hazırlaşır. Bu dövrdə Nəriman Nərimanov gənc Abdullaya qayğı və köməyini əsirgəmir. Görkəmli tədqiqatçı alim Yaqub İsmayılov yazır:

"Ailələri arasında əlaqə və yaxınlıq olduğu üçün Şaiq anası ilə Nəriman Nərimanovun yanına gedir, Bakıya gəlməyinin səbəbini söyləyir. N.Nərimanov onun fikrini bəyənir. Oxumaq üçün ona özünün yazdığı "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (1899) kitabını bağışlayır. Həmçinin Şaiqə metodikanı,

didaktikanı, Azərbaycan dilinin qrammatikası və ədəbiyyatını yaxşı öyrənməyi tapşırır. Abdulla Talıbzadə böyük bir həvəslə imtahana hazırlaşır. Nəhayət, bir neçə aydan sonra həmin gün gəlib çatır... 1901-ci il aprelin 22-də Birinci Aleksandriyski gimnaziyada komissiya qarşısında əla qiymətlə imtahan verib, orta məktəblərdə Azərbaycan dili müəllimi hüququ alır" (Bax: Y.İsmayılov. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı. B., 1962, səh.16).

Abdulla əmək fəaliyyətinə Bakıda əvvəlcə rus-tatar məktəbində ana dilini tədris edir, ayrı-ayrı məktəblərdə müvəqqəti ehtiyat müəllimi kimi çalışır, sonra altı sinifli şəhər məktəbində müəllimlik fəaliyyətinə başlayır. O, ilk gündən öz işgüzarlığı, bilik və bacarığı ilə diqqəti cəlb edir.

Bakı mühiti gənc Abdullanın dünyagörüşündə, ədəbi-pedaqoji fəaliyyətində ciddi dönüş yaradır. O, 1903-1907-ci illərdə Həbibbəy Mahmudbəyovun müdir olduğu altı sinifli Sabunçu məktəbində ana dili müəllimi işləyir. Sabunçu qəsəbəsində dərs deyir. Bir ildən sonra üçüncü gimnaziyaya dəyişdirilir. Bu illərdə gənc Abdulla klassik Azərbaycan ədəbiyyatını öyrənir, şeir və hekayələr yazır, rus dili və ədəbiyyatına dərindən bələd olur.

Yazıçı Əbdürrəhimbəy Haqverdiyevlə və Süleyman Sani Axundovla tanışlığı, əməkdaşlığı və dostluq əlaqələri onun ədəbi-pedaqoji fəaliyyətinə səmərəli təsir göstərir. 1905-ci ildə III kişi progimnaziyasında ana dili müəllimi işləyən Abdulla Şaiq M.Ə.Sabir, A.Səhhət, M.Hadi və H.Cavidlə tanış olur.

Rusiya imperiyasını sarsıdan 1905-ci il burjua demokratik inqilabından sonra çar hökumətinin 17 oktyabr manifesti verməsi, mətbuat, söz, vicdan azadlığı yalançı vədi ilə ölkədə gərginliyi azaltmaq siyasəti tərəqqipərvər ziyalıların əl-qol açmasına imkan yaratdı.

Belə bir ziddiyyətli dövrdə Bakı ictimai-siyasi həyatında da oyanış, yenilik nəzərə çarpdı: Rusiyada olduğu kimi inqilabi hadisələrin qaynar ocaqlarından biri olan fəhlə şəhərində də müxtəlif məsləkli qəzet və jurnallar nəşrə başladı. Mətbuat təzadlı ictimai-siyasi aləmdə baş verən hadisələri ayna kimi əks etdirirdi. Gənc Abdulla Şaiq cəmiyyətdə baş alıb gedən ziddiyyətli məfkurə mübarizəsindən baş açmır, özü etiraf etdiyi kimi, "Oktyabr manifestinə aldanaraq bəzən mürtəce mətbuat səhifələrində çıxış etməli olurdu". Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid ilə dostluq ünsiyyəti, "Molla Nəsrəddin" (1906-1931), "Füyuzat" (1906-1907) jurnallarının demokratik mövqeyi Abdulla Şaiqin ideya-fikri inkişafına aydınlıq gətirir. "Dəbistan", "Məktəb", "Açıq söz", "Doğru söz", "İqbal", "Yeni iqbal", "Nicat" və s. qəzet və jurnallarda çıxan əsərləri onun ədəbi-məfkurəvi mübarizədə demokratik mövqedə dayandığını göstərirdi. 1907-1910-cu illərdə yazdığı "Məktub yetişmədi", "Hürriyyət pərisinə", "Yad et", "İntiharmı, yaşamaqmı?", "Hamımız bir günəşin zərrəsiyik", "Köç", "Son bahar", "Cəhalətdə mücadilə" və digər əsərlərində zəhmətkeş xalq kütlələrinə məhəbbət, gələcəyə inam motivləri başlıca yer tutur. Abdulla Şaiq realnı məktəbdə müəllimliklə yanaşı, yeni dərs proqramları tərtib edir, "Uşaq çeşməyi" və "İkinci il" (şərikli) dərslikləri üzərində işləyir. O, ədəbi yaradıcılığında da kiçik yaşlı uşaqların vətənpərvərlik ruhunda, vətəni və milli dəyərləri sevmək ruhunda tərbiyə edilməsinə qayğı ilə yanaşır. "Məktub yetişmədi", "Hürriyyət pərisinə", "Yad et" və s. əsərlərini yazır. R.Botşalın "Qafqaz çiçəyi" pyesini təbdil edir, "Nicat" Xeyriyyə Cəmiyyəti tərəfindən tamaşaya qoyulmasına nail olur. Litvalı müəllim V.Miskeviçusla tanış olur, onunla dostlaşır. Gənc nəslin elm və biliklərə yiyələnməsi, sağlam ruhda, vətəndaş kimi böyüməsi problemi Abdulla Şaiqin fəaliyyətində təxirəsalınmaz vəzifəyə, vətən borcuna çevrilir.





1906-1907-ci illərdə Bakıda keçirilən müəllimlərin I və II qurultaylarının katibi və proqram komissiyasının üzvü seçilir.

1910-1913-cü illərdə Abdulla Şaiq "Gözəl bahar" adlı ilk uşaq pyesini, "Yaxşı arxa", "Tıq-tıq xanım" , "Tülkü həccə gedir", "Şələquyruq" mənzum və mənsur hekayələrini və ruscadan təbdil etdiyi kiçik həcmli səhnə əsərlərini qələmə alır. Onun "Gözəl bahar" (1910) adlı ilk uşaq pyesi müvəffəqiyyətlə tamaşaya qoyulur, yığılan pul məktəb avadanlığına, kitab, dəftər və digər ləvazimatın alınmasına sərf olunur.

Abdulla Şaiq "Gözəl bahar" pyesi ilə Azərbaycanda uşaq dramaturgiyasının təməlini qoymuşdur. Bundan sonra milli teatr repertuarını zənginləşdirmək məqsədilə "Danışan kukla", "Çoban Məmiş", "Kimdir haqlı", "Yazıya pozu yoxdur", "Ay doğdu", "Həqiqətə doğru", "İldırım", "Şair və qadın" pyeslərini qələmə almışdır. 1913-cü ildə onun "Şələquyruq", "Murad" kitabçaları çıxır.

Bu dövrdə Abdulla Şaiq təkcə bədii əsərləri ilə deyil, tərtib etdiyi "Türk çələngi", "Türk ədəbiyyatı", "Milli qiraət kitabı" dərslikləri ilə də ədəbi ictimai fikrin, maarifçiliyin inkişafına çalışırdı. 1912-ci ildə "Gülzar" dərsliyi çapdan çıxır. O, gəncliyin məfkurəvi yüksəlişi üçün geniş meydan axtarırdı. "Dan ulduzu" (1914) ictimai-siyasi və ədəbi jurnal nəşr etmək istəyi də mətbuatdan tribuna kimi istifadə məqsədi güdürdü. Bu təşəbbüsü Nəriman Nərimanov bəyənsə də, onun həyata keçirilməsinin çətinliyini, irticanın buna yol verməyəcəyini söyləmişdi.

Abdulla Şaiq 1916-cı il oktyabrın 15-də Bakıda müsəlman uşaqları üçün bağça açılmasına icazə alır. lakin bu təşəbbüs səmərəsiz qalır. 1918-ci ildə o, realnı məktəbdə ilk milli siniflər yaradır. "Əsrimizin qəhrəmanları" romanını başa çatdırır". "Ülkər" (1919), "O sən idin" (1919), "Həyat sevməkdir" (1919) və s. şeirlərini yazır. Eyni zamanda "Müntəxabat", "Türk çələngi", "Ədəbiyyat dərsləri" adı ilə dərslikləri tərtib edib nəşrə hazırlayır.

Azərbaycanda Sovet hakimiyyəti qurulması Abdulla Şaiqin çoxcəhətli yaradıcılığı, ictimai fəaliyyəti üçün əlverişli şərait yaradır. Gənclik çağlarında rus imperiyası əsarətinin sıxıntılı mühitində yaşayan Abdulla Şaiq yeni cəmiyyətin keçmişdən fərqləndiyini görür, bu onda "böhranlı və dumanlı günlərdən sonra günəşli yaz səhərinə qovuşmuş adamlarda olan hal doğurur". "İlham mənbəyimiz" məqaləsində yeni ictimai şəraitin onun qəlbində oyatdığı bu intibah, xoş əhval-ruhiyyə barədə yazır: "Müdhiş fırtınalardan və əzici iztirablardan sonra həyat nə qədər dadlı olurmuş! Bu zövqü, bu sevinci mən bütün qəlbimlə duyuram" ("Kommunist" qəzeti, 20 dekabr 1949-cu il).

Yeni ictimai mühit Abdulla Şaiqin qarşısında yeni perspektivlər açır. O, bütün gücünü və bacarığını mədəni quruculuğa, maarifin təşkilinə və bədii yaradıcılığa həsr edir. 1920-1934-cü illərdə Abdulla Şaiq yorulmaz maarif xadimi kimi yeni məktəblərdə, altıaylıq kurslarda, birillik şərq fakültələrində dərslərin keçirilməsinə və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun təşkilinə kömək edir, tədris vəsaiti hazırlayır, metodiki, elmi-pedaqoji məqalələrlə vaxtaşırı çıxış edir, müəllimlik fəaliyyətini davam etdirirdi. "Türk ədəbiyyatı" (1920), "İkinci il" (1921), "Milli qiraət" (1922), "Qiraət kitabı" (1924), şərikli hazırladığı "Ədəbiyyatdan iş" (1928) və "Dördüncü il" (1930) dərslikləri nəşr olunur. Eyni zamanda istedadlı ədəbi gəncliyin qayğısına qalırdı. Rəhbərlik etdiyi ədəbiyyat dərnəklərində, keçirdiyi disput və müsamirələrdə tələbələrə milli mənəvi dəyərlərimizi, klassik ədəbi irsi dərindən öyrətməyə çalışırdı.

1934-cü ildən Abdulla Şaiq Azərbaycan Dövlət Nəşriyyatının uşaq ədəbiyyatı şöbəsində redaktor, 1937-ci ildən Gənc Tamaşaçılar Teatrında bədii-pedaqoji hissə müdiri vəzifələrində işləyir. Onun "Xasay" (1937), "Eloğlu" (1939), "Vətən" (1941) pyesləri bu dövrdə teatr səhnəsində müvəffəqiyyətlə tamaşaya qoyulur.

Abdulla Şaiq gərgin pedaqoji fəaliyyəti ilə yanaşı "Gənclik marşı" (1921), "Üsyan et" (1921), "Şərq gözəlinə" (1921), "Qızım Altunsac" (1922), "Bizimdir" (1922), "Azadlıq pərisinə" (1924), "Əmək pərisinə" (1924) və s. şeirləri, eləcə də yazdığı məqalələr onun bədii yaradıcılığının ideya məzmununda ciddi irəliləyiş olduğunu göstərirdi. 1923-cü ilin dekabrında Abdulla Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin iyirmi illik yubileyi təntənə ilə keçirildi. Bu münasibətlə Azərbaycan Pedaqoji İnstitutunun nəzdində onun müəllimlik etdiyi məktəbə "Şaiq nümunə məktəbi" adı verilir. Bu hər şeydən öncə Azərbaycan təhsilinin təşkilində, pedaqoji fikrin inkişafında onun böyük xidmətini sübut edirdi.

"Həqiqətə dair" (1921), "Yazıya pozu yoxdur" (1921) kiçik həcmli pyeslərinin "Tənqid-təbliğ" teatrında tamaşaya qoyulması, "İldırım" kitabının nəşri (1927),





V.Şekspirin "Maqbet" əsərini tərcümə etməsi (1939), "Xasay", "Eloğlu" (1939) pyeslərini nümayiş etdirməsi Abdulla Şaiqə dramaturq kimi şöhrət qazandırır.

Abdulla Şaiqin Gənc Tamaşaçılar Teatrına ədəbi hissə müdiri dəvəti onun dram yaradıcılığına təkan verir. Gənc Tamaşaçılar Teatrı repertuarı Abdulla Şaiqin "Vətən", "Ana", "Nüşabə", "Fitnə", "Bir saat xəlifəlik" pyesləri ilə zənginləşir.

1940-cı ildə Abdulla Şaiq Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülür.

İkinci Dünya müharibəsi dövründə Abdulla Şaiq arxa cəbhədə çalışan əmək adamlarında qələbəyə inam və vətənpərvərlik duyğuları oyatmağa çalışır. Bədii yaradıcılığında, eləcə də məqalələrində müasir həyatın mühüm hadisələrinə toxunan Abdulla Şaiq klassik bədii irsə də müraciət edir. Nizami Gəncəvinin "Xəmsə" poeması motivi əsasında onun qələmə aldığı "Nüşabə" (1945), "Fitnə" (1946), Süleyman Sani Axundovun eyni adlı əsəri əsasında yazdığı "Qaraca qız" pyesləri rəğbətlə qarşılanır. Şeir və hekayə topluları ilə yanaşı, Şərq və Avropa ədəbiyyatından etdiyi tərcümələr də ədibə şöhrət qazandırır. Onun Firdovsi, Şekspir, Puşkin, Krılov, Lermontov, Qorki, Çexov, Marşak kimi klassik yazıçıların əsərlərindən doğma dilimizə etdiyi tərcümələr bu gün də diqqəti cəlb edir.

Abdulla Şaiqin sağlığında onun əsərləri Azərbaycanın hüdudlarından kənarda da geniş yayılmışdı. Onun xarici ölkələrdə türk, rus, ingilis, fars, ərəb və bir sıra dünya xalqlarının dillərinə tərcümə olunan əsərləri sevilə-sevilə oxunmuşdur.

Abdulla Şaiq xidmətlərinə görə ümumxalq məhəbbəti qazanmışdır. Onu böyük etimadla 1946-1956-cı illərdə SSRİ Ali Sovetinin deputatı seçmişdilər, "Qırmızı Əmək Bayrağı" ordeni (1956) və medallarla təltif olunur. "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülür.

Abdulla Şaiq 1959-cu il iyulun 24-də 78 yaşında vəfat edir, Bakıda Fəxri Xiyabanda dəfn olunur.

Abdulla Şaiq Azərbaycan xalqının qəlbində görkəmli yazıçı, müəllim və ictimai xadim kimi əbədi yaşayacaqdır.

Ölkəmizdə Abdulla Şaiqin adının əbədiləşdirilməsi üçün tədbirlər görülmüşdür. 2001-ci il fevralın 24-də ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Abdulla Şaiq adına ev-muzeyi açılmışdır. Bakının Yuxarı Dağlıq küçəsi, 54 saylı şəhər məktəbi, Dövlət Kukla teatrı, Mingəçevir şəhər kitabxanası Abdulla Şaiqin adını daşıyır. Bakıda "Abdulla Şaiqin ev muzeyi"nə axın-axın ziyarətə gələnlər onun şərəfli həyat yolunu, çoxcəhətli fəaliyyətini əks etdirən eksponatlarla yaxından tanış olur, onu ehtiramla yad edirlər.

***

Abdulla Şaiqin ömür yolu və fəaliyyəti XX əsrə təsadüf etmişdir. O, 1906-cı ildə, 25 yaşında ikən taleyini Bakının təzadlı ictimai-siyasi həyatı ilə bağlamış, burada məfkurəcə formalaşmış, çoxcəhətli ədəbi, pedaqoji fəaliyyətinə başlamışdır.

Abdulla Şaiq yeni ədəbiyyatın yaradıcıları M.F.Axundov, A.Bakıxanov, H.Zərdabi, N.Vəzirov, F.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir və digər maarifçi-demokrat yazıçıların sələflərindən biri kimi Azərbaycanın pedaqoji, ədəbi fikir tarixində silinməz iz qoymuşdur. Abdulla Şaiq maarif xadimi, uşaq şerinin klasski yaradıcısı, görkəmli şair, nasir və dramaturq, ədəbiyyatşünas kimi tanınmışdır.

Abdulla Şaiq yeni ədəbiyyatın təməlini qoyan sənətkarlardan idi. Lakin müasirləri onun maarifə xidmətini xalqa xidmətinin ən başlıca cəhəti kimi qiymətləndirirdilər.

Abdulla Şaiq özü yazırdı ki, "...mən bu gün yazıçılığımdan ziyadə müəllimliyimlə fəxr edirəm".

Müəllimliyi ilə yanaşı Azərbaycan ədəbiyyatına və dilinə dair dərsliklər yazması, metodik vəsait və tədris proqramları hazırlaması, tənqid və ədəbiyyatşünaslıq sahəsində səmərəli çalışması, ictimai mədəni xidmətləri və sairə Abdulla Şaiqi fəal maarif xadimi kimi səciyyələndirirdi (Bax: Şaiqanə yad et. Bakı, Gənclik, 1981, səh.4)

Atababa Musaxanlının Abdulla Şaiqi Münəvvər gəncliyin ilk ədəbiyyat müəllimi", "kiçik çocuqların ilk mənəvi xadimi" adlandırması təsadüfi deyildi. Həyatı boyu öz ədəbi və tərbiyəvi xidməti ilə seçilən Abdulla Şaiqin--Atababa Musaxanlıya görə, bütün şəxsiyyətini təsvir və təcəssüm üçün ona "iki nöqtədən yaxınlaşmaq vacibdir: Şaiq-Şair! Şaiq-Müəllim!".

Yaqut Dilbazi Abdulla Şaiqin bədii əsərləri ilə də müəllim olduğunu söyləyirdi. Onun fikrincə, "görkəmli sənətkar gəncləri vətənə məhəbbət, insanpərvərlik, xalqlar dostluğu ideyaları" ruhunda tərbiyə edirdi.

Azərbaycan maarifinin çiçəkləndiyi dövrdə Şaiq məktəbinin yetirmələri olan minlərlə gənclər yeni cəmiyyətin, milli dövlətin ən fəal quruculari olmuşlar. Onlar öz biliyi, insani rəftarı, səmimiliyi və atalıq qayğısı ilə seçilən Abdulla Şaiqi ehtiramla yad etmişlər.

Akademik Həmid Araslı sevimli müəllimini ehtiramla xatırlayırdı:

"Taleyim xalqımızın mənəviyyat tarixində misilsiz xidmətləri olan o zamankı gəncliyin böyük müəllimi--mənəvi atası Abdulla Şaiqin tələbəsi olmaq səadətini məndən də əsirgəmədi".





Şaiq bütün fəaliyyəti və xüsusiyyəti ilə nümunə idi. Mən fəxr edirəm ki, Şaiq kimi böyük bir müəllimin tələbəsi olmuşam və bütün həyatım boyu ona oxşamağa, xalqa, vətənə onun kimi xidmət etməyə çalışımışam".

Xalq yazıçısı Mehdi Hüseyn Abdulla Şaiqin çoxcəhətli ədəbi-ictimai və pedaqoji fəaliyyətini, onun ictimai fikir tariximizin inkişafına təsirini nəzərdə tutaraq yazırdı:

"Bu müəllim, Azərbaycan xalqının minlərcə oğlunu tərbiyələndirmiş, onların qəlbinə əsl humanizm duyğularını aşılamış, köləliyə və haqsızlıq dünyasına sonsuz bir nifrət hissi oyatmış, XX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli bir mövqe tutmuş, lirik nəsrimizin təməl daşını qoymuş, öz bədii lövhələrində saf Azərbaycan dilinin gözəlliklərini təcəssüm etdirmiş müqtədir yazıçı Abdulla Şaiq idi" (Yenə orada, səh.20).

Gənc Abdulla Şaiq Rusiya burjua demokratik inqilabı ərəfəsində ilk qələm təcrübələri ilə ədəbi fəaliyyətə başlamışdır: Şərq poeziyasının təsiri ilə yazdığı aşiqanə qəzəllər, rus təmsilçisi Krılovdan etdiyi tərcümələr, eləcə də "İki müztərib yaxud əzab və vicdan" romanı və "Rüstəm-Səbati" adlı pyesi onun axtarış və sınaq dövrünün məhsulu idi.

Bakının ictimai-siyasi hadisələrlə dolu mühiti yazıb-yaratmaq eşqilə yaşayan Abdulla Şaiqin dünyagörüşündə ciddi təbəddülat yaradır. O, pedaqoji fəaliyyəti ilə yanaşı, dövrün tələbini əks etdirən, bədii cəhətdən bitkin əsərlər yazmaq arzusu ilə zəngin klassik irsi öyrənir, mətbuatla sıx əlaqə saxlayır. Bu elə bir vaxta təsadüf edirdi ki, kapitalizm ziddiyyətlərinin kəskin təsadüf etdiyi Bakıda "get-gedə ictimai-mədəni intibah güclənir, və dərinləşirdi. Dövrün qabaqcıl oğulları fürsəti əldən buraxmayaraq, zəruri tədbirlərin həyata keçirilməsi uğrunda mübarizəni genişləndirir, xalqın ictimai yaralarını sağaltmaq üçün münasib yollar arayır, yeni tipli məktəblərin, kitabxana, klub və xəstəxanaların açılmasına, müxtəlif mədəni-maarif ocaqlarının, cəmiyyətlərin təşkilinə çalışır, mütərəqqi qəzet və jurnalların nəşri sahəsində əzmlə fəaliyyət göstərirdilər" (Y.İsmayılov. Abdulla Şaiqin həyatı və bəzi yaradıcılığı. Bakı, 1962, səh.53 ).

Bakının ziddiyyətli ictimai-siyasi həyatında baş verən hadisələr axını Abdulla Şaiqin mənəvi dünyasında anlaşılmaz hisslər doğururdu. Onun ilk şeirlərində məhəbbət, vətənpərvərlik, humanizm duyğuları ilə yanaşı, kədər, şikayət tərəddüd və pərişanlıq motivləri zamanın inikası kimi səslənirdi.

Abdulla Şaiqin ilk mətbu şeiri--"Ananın oğluna layla deməsi" 1906-cı ildə "Dəbistan" jurnalının ikinci nömrəsində "M.A.Talıbzadə" imzası ilə dərc olunmuşdur (Orada).

Bundan sonra şair "Bir quş" (1907), "Niyə uçdu" (1907) "Hər şey əski" (1909), "Vərəmli həyat" (1909) və s. şeirlərində mövcud quruluşu, xalqın

kükrəyən inqilabi hərəkatını, təzadlı ictimai hadisələri təsvir etmişdir. Abdulla Şaiq kəsif, dumanlı və sıxıntılı mühitdə tək-tənha, pərişan olsa da, zorakılıq dünyasına, çar üsul-idarəsinə qarşı nifrətlə dolu qəlbində istiqbala, işıqlı bir aləmə ümid bəsləyirdi. Şair "Parçalar" (1908) şeirində "dərdi-qüssə"sinin səbəbini vətəni məramıca görməməklə əlaqələndirir, bir zaman istibdadın məhv olacağına, "Son bahar" (1910) şerində isə günəşin doğacağına, baharın gəlişinə inamını bildirirdi.

Bu romantik əhval-ruhiyyə, mübarizə duyğusu Abdulla Şaiqin "Cəhalət və mücadilə" (1910), "Həmımız bir günəşin zərrəsiyik" (1910), "Simurq" (1914), "İrəli" (1914) ideya-bədii cəhətdən orijinal şeirlərində daha təsirli verilmişdir. Burada şairin mövqeyi--dövrün mütərəqqi qüvvələrinə azadlıq, xoşbəxt gələcək uğrunda mübarizədə mətanətli olmaq çağırışı, ədalətin bütün dünyada zəfər çalması və millətləri bir-birindən ayrı salan uçurumları aradan qaldırmaq arzuları, humanizmi və gələcəyə nikbin baxışı romantik haləyə bürünsə də dövrün ən mütərəqqi ideyası kimi tərənnüm olunmuşdur.

O dumanlı, fırtınalı keçmişlərdən uzaqlaş!
Odlu, mətin addımlarla yürü, yürü, durma, arş!
İrəlidə inan ki, bir cənnət kimi cahan var,
Sabah günəş orda doğar, səadət orda parlar.
*("İrəli", 1914).*

Romantika və realizm Abdulla Şaiqin ilkin şeirlərinə sanki qoşa qanad olmuş, bəzən də vəhdət halında təzahür etmişdir. Lakin sonrakı mərhələdə ictimai-siyasi prosesləri dərk edən şairin poeziyasında realizm güclənmişdir, yoxsul kəndlinin məhsul həsrətini və acınacaqlı həyatını əks etdirən "Əkinçi" (1907), "Əkin nəğməsi" (1907), "Əkinçi və xan" (1913) şerləri bu cəhətdən səciyyəvidir. Onun "Köç" (1907), "Dağlar" (1908), "Çoban mahnısı" (1911) və "Dağlar sultanı" (1911) şeirlərində olan konkretlik, bədii bitkinlik və ideya məzmunu Abdulla Şaiqin dünyagörüşündə və sənətkarlıq bacarığında ciddi dönüş yarandığını göstərirdi.

Əbədiyyatşünas alim Firudin bəy Köçərli 1911-ci il oktyabrın 10-da Abdulla Şaiqə göndərdiyi məktubda "Dağlar sultanı" kimi "gözəl bir əsərin" yaranmasını təqdir edir: "Filhəqiqət çobanların həqqində yazdığınız şerlər mənim çox xoşuma gəldi. Neçə kərə onları özüm üçün və şagirdlər üçün oxumuşam. Onlara da çox xoş gəlib, üzünü götürüblər". (Yenə orada, səh. 73).

"Dağlar sultanı" "Məktəb" jurnalının 1912-ci il 9 iyun tarixli 14-cü sayında dərc edilmişdir.





Dan açınca xoruz, beçələr banlar
Çən, dumankən dərə, təpə ormanlar,
Sürüsünü yayar dağa çobanlar,
Təbiətin ləzzətin onlar anlar.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar...

Günəş yaxın dağlar ucundan doğar,
Buludları gözəl rənglərə boyar,
Dumanları dağlara doğru qovar.
Hər kəsi bu gözəllik valeh qoyar,
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar...

Xalq yazıçısı, akademik Mirzə İbrahimov yazırdı: "Dağlar sultanı" şeiri bədii qiyməti və gözəlliyi etibarilə "Köç" qədər yüksək və kamil bir əsərdir. Burada hər misra mənzərədir, canlı, həyati bir tablodur. "Köç" əsərində olduğu kimi sadə və dolğun xalq dili ilə yazılmış bu şeir çobanlar haqqında, onların gəzib dolandığı çöllər və dağlar haqqında ürəkdən çıxan bir nəğmə, bir musiqi parçasıdır" (Bax: Qocaman yazıçı və ictimai xadim, Azərbaycan SSR EA Xəbərləri, Bakı, 1950, N 8, səh. 104.).

Şəffaflıq, məzmun dolğunluğu, bədii sənətkarlıq Abdulla Şaiqin "İntizar" (1911), "Sabirə" (1912), "Fidan" (1914), "İki mücahid" (1913), "Ülkər" (1919), "O sən idin" (1919), "Həyat sevməkdir" (1919) və s. şeirlərində də şairin gələcəyə inamla, nikbin əhval-- ruhiyyə ilə ümid bəsləməsini göstərir, oxucuların nəzərini əsarətdən nicat yoluna doğru yönəldirdi. O, "Ülkər" şeirində zülmət qaranlıqda səhrada yolunu azmış karvanlara yol göstərən parlaq ulduza üz tutur:

Sənədir ümidim, ey parlaq ülkər,
Mən də bir yolçuyam, itkin dərbədər,
Qurtuluş yolunu mənə də göstər,
Mələkdən, fələkdən uca sandığım.

XX əsrin əvvəlləri Bakı mühitində məfkurəcə yetkinləşən Abdulla Şaiq çoxcəhətli fəaliyyəti ilə zamanla ayaqlaşmağa can atırdı. O, 1908-1920-ci illərdə realnı məktəbdə müəllim işlədiyi zaman "İkinci il"(1908), "Gülzar" (1912), "Milli qiraət" (1919), "Müntəxəbat" (1919), "Türk çələngi" (1919), "Ədəbiyyat dərsləri" (1919) dərsliklərini çap etdirir. Bədii ədəbiyyatın əsas janrlarında

əsərlər yaradır: "Məktub yetişmədi" (1908), "Köç" (1910), hekayələri, "Qafqaz çiçəyi" (1909), "Danışan kukla" (1915) təbdil pyesləri, "Şələquyruq" (1913) və "Murad" (1913) kitabçaları, mətbuatda çap etdirdiyi şeir və hekayələri ədəbi-ictimai və pedaqoji fikrin inkişafı yolunda onun səmərəli fəaliyyətini göstərirdi.

Abdulla Şaiq ədəbi yaradıcılığında kiçik yaşlı uşaqlara, yeniyetmə və gənclərə aid əsərlərə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. O, əlinə qələm aldığı ilk illərdən ömrünün axırınadək gənc nəslin zehni inkişafına, əxlaqına və estetik tərbiyəsinə əhəmiyyətli təsir edən əsərlər--lirik şeirlər, kiçik pyeslər, nağıllar, mənzum və mənsur hekayələr yazıb dərsliklərdə, mətbuatda çap etdirmişdir. Abdulla Şaiq əlvan və rəngarəng söz palitrası ilə müasir Azərbaycan ədəbiyyatında gənc nəslə məxsus bədii əsərlərin təkrarolunmaz gözəl nümunələrini yaratmışdır.

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz,
Sən nə tezdən durursan,
Qışqırıb banlayırsan
Qoymayırsan yatmağa,
Ay canım məstan xoruz!

*("Xoruz" 1906).*

Ay kiçicik soluq cücəm,
Boynu buruq, yoluq cücəm,
Açma o sarı dimdiyin,
Başlama qəmli cik-ciyin.
Tək gəzinib sıxılma çox,
Ağlayıb nalə qılma çox.
Qəm yemə, sus, bir az dayan,
Mən olaram sənin anan.
Səni o səslə səslərəm,
Dən, su verib də bəslərəm
Ağlama, ağlama, cücəm,
Qəlbimi dağlama, cücəm.

*(Yetim cücə, 1906).*

Bu lirik nümunələrdə olduğu kimi, "Uşaq və dovşan" (1906), "Keçi" (1906), "Səhər" (1906) "Çoban mahnısı" (1906), "Quzu" (1906), "Cütcü" (1907), "Tülkü və qurd" (1908), "Tülkü və aslan" (1912), "Uşaq və bənövşə" (1928), "Qərənfil" (1928) və sairə bədii sənət inciləri ilə şairin kiçik yaşlı uşaqların mənəvi





dünyasında möcüzələr yaratmasına heyran olmamaq mümkün deyildir. Abdulla Şaiqin incə, həssas qəlbi, biliyi, müşahidəçilik qabiliyyəti, həyat təcrübəsi, zəngin təxəyyülü və yaradıcılıq istedadı olmadan bu cür təravətli, yaddaqalan əsərlər yarada bilməzdi. Abdulla Şaiq kiçik yaşlı uşaqların dünyagörüşünə uyğun, sadə dildə, səmimi lirik şeirləri ilə onların ləkəsiz, pak uşaq qəlbində silinməz "əxlaq kodeksi" nəqş edən qeyri-adi sənətkar idi.

O, vətənin gələcək qurucuları, ümid çırağı olan balaların gözəl əxlaqlı, incə zövqlü, zəngin mənəviyyatlı və sağlam düşüncəli olmasına çalışırdı, onların qəlbinə yol tapmaq, ruhunu oxşamaq, fikrini təlqin etmək üçün canlı, oynaq, ahəngdar, obrazlı və konkret şeirlər yaradırdı. Uşaqların dilindən oxumaq məqsədi ilə yazdığı əsərlərdə Abdulla Şaiq onların qəlbində vətən təbiətinə məhəbbət oyadır, fauna və flora aləminə, heyvanlara, quşlara, gül və çiçəklərə qayğı, mərhəmət hissi, beləliklə həyatın ecazkar gözəlliklərini dərindən duymaq zövqü aşılayırdı.

Abdulla Şaiq uşaq və yeniyetmələrə həsr etdiyi əsərlərini onların yaşına, mənəvi aləminə, dünyagörüşünə və bədii zövqünə uyğun qələmə alırdı. Abdulla Şaiqin uşaq və yeniyetmələr üçün yazdığı əsərlər ədəbi mükəmməlliyi və əxlaqi tərbiyəvi əhəmiyyəti cəhətdən böyükləri də cəlb edir.

Abdulla Şaiqin başlıca məqsədi görkəmli ədəbiyyatşünas alim Məsud Əlioğlu dediyi kimi, "müxtəlif simvolik haşiyələr, realist lövhələr və romantik səhnələr vasitəsi ilə yeniyetmələrə, insanın real həyatındakı ən böyük və müqəddəs vəzifəsinin, ən yüksək və nəcib arzusunun xalqına və millətinə, əsil vətəndaş adına layiq qeyrətlə xidmət etmək olduğunu başa salmaq olmuşdu".

Abdulla Şaiq didaktik məzmunlu, xəlqi əsərləri ilə "hüşyar cavanlar" tərbiyə etməyə, vətənsevər ziyalı, kamil şəxsiyyət yetişdirməyə çalışırdı.

O, lirik şerlərində ("Ana yurdum", "Vətən nəğməsi", "Kür çayı"), mənzum hekayələrində ("Tapdıq dədə", "Nüşabə" və nağıl pyeslərində ("Eloğlu", "Vətən") yüksək vətənpərvərlik ruhu, qəhrəmanlıq eşqi, vətənə tükənməz məhəbbət aşılayırdı. Bu müqəddəs duyğular, xeyirxahlıq və fədakarlıq realist və ya romantik obrazlar vasitəsi ilə qəlbə, şüura yol tapır, böyük tərbiyəvi əhəmiyyət kəsb edirdi.

Abdulla Şaiq cəmiyyətdə xoşagəlməyən meyllərə, eybəcərliyə qarşı ardıcıl mübarizə aparırdı. O, təmsillərində və mənzum hekayələrində kinayə, yumor və satira vasitəsilə xudpəsəndlik və lovğalığı ("Tıq-tıq xanım"), acgözlük və riyakarlığı ("Türkü həccə gedir"), tamahkarlıq və yalançılığı ("Yaxşı arxa") kəskin tənqid edirdi.

Abdulla Şaiq uşaqların və yeniyetmələrin əxlaqına zehni inkişafına, mənəvi-psixoloji ovqatına faydalı təsir edən əsərləri ilə milli uşaq ədəbiyyatını zənginləşdirmiş, yeni cığır açmışdır. Onun əlvan poetik qalereyasını bəzəyən əsərlər ölməzdir.

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV № 58604

Abdulla Şaiq nəsr sahəsində də qələmini sınamışdır. O, hekayələri --("Məktub yetişmədi" (1980); "Köç"(1910); povestləri - ("Dursun" (1911), "Əsrimizin qəhrəmanları" (1909-1918); romanı -"Araz" (1938) və bu janrlarda yazdığı digər əsərləri ilə müasir Azərbaycan nəsrinin dəyərli nümunələrini yaratmışdır. Yazıçı öz əsrlərində xalq həyatının tipik, canlı lövhələrini nəsrin imkanları çərçivəsində verməyə çalışmışdır.

"İki müztərib yaxud əzab və vicdan" (1905) romanı--uğursuz yaradıcılıq cəhdi-- hələ kifayət qədər təcrübəsi olmayan gənc Abdulla Şaiqi ruhdan salmamışdı, onu mütaliə etməyə, xalq həyatını öyrənməyə, sənət sirrlərinə daha dərindən bələd olmağa, bədii sözün qüdrəti ilə canlı lövhələr yaratmağa, xalqın həyat tərzini, ictimai dərdlərini, mübarizəsini və arzu istəklərini təsvir etməyə sövq etmişdir.

Abdulla Şaiq ilk nəsr əsəri "Məktub yetişmədi" hekayəsində Qurban obrazında cənubi Azərbaycandan bir tikə çörək pulu qazanmaq üçün Zaqafqaziyaya axışıb gələn binəsiblərin taleyini, gün-güzəranını təsvir etmişdir. O, müşahidələri əsasında ictimai-faciəni real həyati lövhələrdə sənətkarlıqla verə bilmiş, beləliklə nəsr yaradıcılığına cığır açmışdır. "Köç" (1910), "İntiharmı, yaşamaqmı?" (1910), "Göbələk" (1912), "Pirin kəraməti" (1912), "Ağlaşma" (1912), "Dəyərli bir xatirə" (1914), "İblisin hüzurunda" (1915), "Anabacı" (1923), "Vəzifə"(1923), "Qarakilis xatirəsi" (1927), "Özü bilsin mənə nə" (1928), "Əsəbi adam" (1935), "Baş üstə" (1946) hekayələrindən göründüyü kimi Abdulla Şaiq ictimai həyatda və ailə-məişət aləmində nəzərə çarpan təzadlara, nadanlığa, xurafata, narahatçılıq doğuran bir sıra vacib məsələlərə diqqəti cəlb edir. Bu hekayələrdə lirizm və psixoloji məqamlara geniş yer verilmişdi.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov Abdulla Şaiqi ustad hekayənəvis kimi yüksək dəyərləndirirdi. O yazırdı "Yığcam süjet, doğru və dəqiq bədii təsvirlər, hadisənin təbii inkişafı, mənalı dialoq və lirik əhval-ruhiyyə Abdulla Şaiqin hekayələrinin gözəl xüsusiyyətləridir" (M.İbrahimov. Qocaman yazıçı və ictimai xadim. Azərbaycan SSR EA Xəbərləri, Bakı, 1956, N8, səh. 104).

Abdulla Şaiq hekayələrində olduğu kimi povest, roman və pyeslərində, mənzüm əsərlərində köhnə və yeni dünya adamlarının ailə-məişət və ictimai həyatının ibrətamiz lövhələrini yaratmışdır.

XX əsrin əvvəlləri Bakı milyonçularının, çar mərumları və varlıların özbaşınalığı, zəhmət adamlarına qarşı münasibəti, gəc rəftarı, yoxsulların ürəkdağlayan ağır həyatı, faciəsi, sovet hakimiyyətinin ilk illərində isə "yeni dünya"nın ab-havası şəraitində xalqın həyatında baş verən dəyişikliklər onun əsərlərində real lövhələrdə sənətkarlıqla qələmə alınmışdır.

Abdulla Şaiq "Dursun" ("Bədbəxt ailə") povestində əxlaq-təbriyə, ailə-





məişət problemləri fonunda feodal-patriarxal kənd həyatında kök salmış ictimai-ziddiyyətləri tənqid etmişdir.

"Əsrimizin qəhrəmanları" povestində Bakı mühitində --XIX əsrin sonu XX əsrin əvvəlləri--dirçələn kapitalizm cəmiyyətinin təzadlı həyatı, Hacı Kərim, Ağa Mürsəl, Əşrəf, Əhməd kimilərin simasında burjua əxlaqının insanları mənəvi cəhətdən eybəcərləşdirməsi inandırıcı verilmişdir. Bu sıxıntılı "zülmət səltənətində" xalq azadlığı və səadəti uğrunda mübarizə ruhu, həyat eşqi ilə çırpınan Zəki obrazında yazıçı insanların qəlbində fədailərin xalqın azadlığı yoluna işıq salacağına inam yaradır.

Abdulla Şaiq iyirmi illik fasilədən sonra 1938-ci ildə bədii sənətkarlıq cəhətdən qüvvətli, iri həcmli nəsr əsəri --"Araz" romanını yazmışdır. Bu əsər Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirən ilk dəyərli romanlardan biridir.

"Araz" romanı Bakı neft fəhlələrinin tarixi inqilabi mübarizəsindən bəhs edir. Burada Yazıçı Araz obrazında kapitalizm aləminə, istismarçı sinfə qarşı inqilabi mübarizəyə qoşulan azərbaycanlı fəhlələrinin ümumiləşdirilmiş surətini yaratmışdır. Əsərdə Bakının ziddiyyətlə dolu hadisələri, fəhlələrin ağır həyat şəraiti, mübarizə əzmi, Rəhim bəy, Aslan bəy, Baris, Şeyda kimi var-dövlət düşgünlərinin iyrənc daxili aləmi, xəyanəti konkret real lövhələrdə sənətkarlıqla təsvir olunmuşdur.

Abdulla Şaiqin yaradıcılığında dramaturgiya xüsusi yer tutur. O, "Gözəl bahar" (1910) mənzum pyesi ilə Azərbaycan uşaq dramaturgiyasının əsasını qoymuşdur. Bu təkcə şairin yaradıcılığında deyil, milli dramaturgiya tarixində uşaqlara məxsus ilk maraqlı səhnə əsəridir. Allerqorik səpgidə yazılmış mənzum pyesdə əsas surətlər--Bahar, Qış, Günəş, Yer, Su, Yel uşaqların təbiət hadisələri ilə tanış olmasına, eyni zamanda onların dünyagörüşünə ciddi təsir göstərirdi.

"Gözəl bahar" əsərindən sonra Abdulla Şaiq uşaq və gənclər üçün kiçik pyes və nağıllar ("Uşaq gözlüyü" (1910), "Tıq-tıq xanım" (1911), "Yaxşı arxa" (1911), və s.) yazıb Orucov qardaşları və Kaspi mətbəələrində nəşr etdirmişdir. Bu əsərlərin kompozisiya aydınlığı, yeniyetmələrin dünyagörüşünə və zövqünə uyğunluğu, canlı və təsirli olması ədəbiyyatşünas alim Firudin bəy Köçərlinin diqqətini cəlb etmişdi. O, Abdulla Şaiqə göndərdiyi 26 may 1911-ci il tarixli məktubunda yazırdı: "... Bu kitablar balaca uşaqları ana dilində oxumağa həvəsləndirib onların vücudunda olan təbii-şeriyyəni və şairlik hisslərini oyadıb hərəkətə gətirməyə səbəb ola bilər. Ona binaən xırdaca uşaqlar üçün yazılan nağıl və hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər mənzurda olan mətləblər artıq dərəcədə hasilə gəlib yaxşı meyvələr gətirər" (Bax.: Y.İsmayılov. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı, Bakı, 1962, səh. 170)

Abdulla Şaiq səhnə əsərlərinin kütləvi tərbiyəvi təsirini, insanların dünyagörüşündə və mənəvi aləmində ciddi təbəddülat yaratdığını görürdü. O öz klassik sələfləri kimi teatrı tərbiyə məktəbi hesab edirdi. Bu da onu bir yazıçı kimi dövrün tələbinə uyğun vacib ictimai siyasi mətbəlləri geniş kütlələrə çatdırmaq, onları yeni cəmiyyət uğrunda mübarizəyə, əmin-amanlığa, xoşbəxt gələcəyə hazırlamaq üçün teatrdan bir tribuna kimi istifadə etməyə sövq edirdi. Onu səhnə əsərləri yaratmağa təhrik edən, həvəsləndirən müqəddəs vətənpərvərlik duyğuları, vətəndaşlıq borcu idi.

Abdulla Şaiqin dram yaradıcılığının ideya məzmunu və ictimai həyatımızın ayrı-ayrı dövrlərini əks etdirən səhnə təcəssümü onun bir yazıçı kimi mücərrəd romantizmdən, romantikadan realizmə doğru məfkurəvi inkişafını, bir sənətkar kimi yüksəliş yolunu təsəvvür etməyə imkan verir.

"Bir saat xəlifəlik" (1911), "Danışan kukla" (1913), "İdeal və insanlıq" (1914), "Aldanmış ulduzlar" (1928), "Xasay" (1937), "Eloğlu" (1939), "Vətən" (1941), "Nüşabə" (1945) və s. səhnə əsərləri Abdulla Şaiqin yaşayıb yaratdığı dövrdə ədəbi fikir salnaməçisi kimi xalq həyatına, ölkəmizin tarixi gərdişinə necə sıx bağlı olduğunu sübut edirdi.

Bu pyeslərdə yazıçı həyat həqiqətlərindən, ictimai-siyasi hadisələrdən, klassik ədəbi irsdən təsirlənmişdir. Abdulla Şaiq "Xatirələrim" kitabında keçdiyi ömür yolu, ədəbi mühiti və yaradıcılığı barədə söhbət açarkən onun ilham pərisinə qol-qanad verən qaynaqlara da toxunmuşdur.

Təkcə onu xatırlatmaq yerinə düşər ki, Abdulla Şaiq kiçik yaşlarından mütaliə ilə ardıcıl məşğul olmuş, onda əbədi yaradıcılığa güclü meyl oyanmış, şifahi xalq ədəbiyyatı (nağıl, rəvayət, tapmaca, lətifə, bayatı, atalar sözü, məsəllər, aşıq şeirləri) onun mənəvi qida mənbəyi olmuşdur.

Abdulla Şaiq yazır: "Folklor mənə xalq dilini, xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi, xalqı və vətəni daha dərindən sevdirdi".

Ömrü boyu Vətən, Xalq sevgisi ilə yaşayan Abdulla Şaiq zəngin həyat təcrübəsi, həssas müşahidə qabiliyyəti, klassik ədəbi irsə və şifahi xalq ədəbiyyatına dərin bələdliyi, həyatı real əks etdirmək bacarığı ilə dəyərli əsərlər yaratdı, Azərbaycan ədəbiyyatını zənginləşdirdi, milli ədəbi fikrin patriarxı zirvəsinə qalxdı, əbədiyyətə qovuşdu.

Abdulla Şaiq əbədiyaşar sənətkardır. Onun fəaliyyəti və yaradıcılığı milli ədəbiyyat tariximizin ən parlaq və unudulmaz səhifəsini təşkil edir.

**TEYMUR ƏHMƏDOV,**
***filologiya elmləri doktoru,***
***professor***







Köhnə Tiflisin ümumi görünüşü. XIX əsr

«Doğulduğum və uşaqlıq illərimin çoxunu keçirdiyim Tiflis şəhəri, ətəkləri yaşıl otlar və əlvan çiçəklərlə bəzənmiş uca dağlarla qucaqlaşmışdır. İnsan əli dəyməmiş kimi görünən müctəhid və botanik bağları, Şeyx Sənan dağı, Sərdar bağı zəngin təbii gözəllikləri olan Tiflis şəhərini əlvan qanadlarını geniş açmış tovuz quşuna bənzədir. Şəhəri ikiyə ayıran Kür çayının yaşıl məxmər xalıya oxşayan sahilləri, şəhəri gizlətməyə çalışan uca, şax-budaqlı ağacları Tiflisin gözəlliyini bir qat daha artırır.

Tiflis bu dövrdə yalnız Gürcüstanla deyil, bütün Zaqafqaziya xalqlarının siyasi-ictimai həyatı ilə bağlı bir şəhər idi».

**Abdulla Şaiq**



Abdulla Talıbzadə, məktəb illəri. Tiflis, 1988-1889-cu illər

«Mən müəllimlərimi çox sevirdim. Bilmirəm, mənmi həddindən artıq xəyalpərəst bir uşaq idim, ya onlar doğrudan da bu qədər nəcib insanlardılar?! Mən onları uşaq xəyalımda dərəcə-dərəcə böyüdür, bir növ, bizim kimi adi insan olduqlarına inana bilmirdim. Onların hər bir hərəkəti, rəftarı məndə coşğun hisslər, yüksək düşüncələr oyadırdı. Dərsə olan sonsuz həvəsim və yorulmadan gecə-gündüz çalışmağım da müəllimlərimə səmimi məhəbbətimdən irəli gəlirdi. Səhərlər ala-qaranlıqdan oyanır, dərslərimi lampa işığında təkrar oxuyub hazırlayırdım. Böyüdükdən sonra, müəllim olduğum zamanlarda belə, o müəllimlərimi unuda bilmirdim. Həmişə özümü onlara bənzətməyə çalışardım».

**Abdulla Şaiq**







Mehri xanım Talıbzadə



Axund Mustafa Talıbzadə

«Atam ruhani olmasına baxmayaraq, öz təbiəti etibarı ilə daha çox müəllimə bənzəyirdi. (Məncə vəzifənin insanların əhval-ruhiyyəsinə az-çox təsiri olur). O, məhdud fikirli, mütəəssib, zaman və mühitini düşünməyən ruhanilərdən deyildi. Vəzifəsinə sadiq, haqqı və doğruluğu sevən, zamanının maarifçi şəxslərindən idi. İdareyi-ruhaniyyədən və müəllim olduğu altı sinifli məktəbdən aldığı zəhmət haqqı ilə ailəsini dolandırırdı. Məktəbdə şəriət, fars dili və ərəb qəvaidi müəllimi idi. Bütün Tiflis camaatı onu sevirdi. Hamı onu «Axund əmi» çağırardı».

**Abdulla Şaiq**



XIX əsr İran. Xorasan şəhəri



Xorasan. Mirzə Yusif məktəbinin müəllimi və tələbələri

«Xorasan məktəbləri mənim xoşuma gəlmədi; Mirzə Yusifin məktəbində az-çox yenilik vardısa da, hər halda köhnə üsulda olan məktəblərə çox bənzəyirdi. Burada hətta falaqqa və çubuq da var idi. Uşaqları çox bərk döyürdülər. Tiflisdəki uşaqlıq həyatım, məktəbim, yoldaşlarım, Kür sahilindəki evimiz heç yadımdan çıxmırdı...»

**Abdulla Şaiq**





XX əsrin əvvəllərində Azərbaycanın milli məfkurəsini hazırlayan görkəmli ideoloqlar maarifçiliyi, türkçülüyü, islamçılığı, rus müstəmləkəçiliyi əsarətində çırpınan xalqın azadlıq mübarizəsinin əsas fikri, siyasi, dini cərəyanları hesab edirdilər. Dövrün bu ideoloqları içərisində qızğın fəaliyyət göstərən Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Məmmədəmin Rəsulzadə, Əlimərdanbəy Topçubaşov, Firidun Köçərli ilə yanaşı, Yusif Ziya Talıbzadənin də xüsusi yeri vardır. O, həm islam dini, xalq həyatı barədə ciddi kitablar, dərsliklər yazmış, müasir maarifçiliyin məzmununu zənginləşdirən onlarla məqalələr nəşr etdirmiş, bədii yaradıcılıqla məşğul olmuş, siyasi, hərbi fəaliyyəti ilə milli azadlıq hərəkatının fəal nümayəndələrindən biri olmuşdur.

Yusif Ziya Talıbzadə Abdulla Şaiqin böyük qardaşı idi. Müasirləri yazırlar ki, ədibin türkçülük ideyalarına yiyələnməsində qardaşının böyük xidməti olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulanda Türkiyədə yaşayan Yusif Ziya vətəninə gəlmiş, Nəriman Nərimanovun vasitəçiliyi ilə Naxçıvanın hərbi naziri təyin edilmişdi. Onun Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycan Dövlət Arxivində saxlanan, Azərbaycan xarici işlər komissarı M.D.Hüseynova və İnqilabi Komitənin sədri Əliheydər Qarayevə Naxçıvandan göndərdiyi 22 fevral 1921-ci il tarixli məktub da dediklərimizi təsdiq edir. 11 maddədən ibarət bu məktubda Zəngilanın Azərbaycanla birləşdirilməsi məsələlərindən və bunun üçün görülməsi vacib olan tədbirlərdən danışılırdı. Lakin Bakıdan öz təkliflərinə lazımi cavab ala bilməyən Yusif Ziya Nəriman Nərimanovun köməkliyi ilə Azərbaycan Respublikasından xaricə getmək icazəsini alır. Bakıdan o, Türküstana, yaxşı tanıdığı Ənvər paşanın komandanlıq etdiyi, işğalçı Qızıl Ordu ilə vuruşan, Orta Asiya xalqlarının müstəqilliyi, azadlığı uğrunda mübarizə aparan basmaçılara qoşulur. Bir çox döyüşlərdə hərbi bacarıq və mərdlik göstərir. Paşa hələ Türkiyədən tanıdığı Yusif Ziya Talıbzadəni öz müavini təyin edir. Ənvər paşa Qızıl Ordu dəstələri ilə döyüşlərdə öldürüldükdən üç gün sonra Yusif Ziya da kafir gülləsinə tuş gəlir. Qana bulaşmış alt köynəyini çıxarıb Bakıya, qardaşına çatdırmaq üçün döyüş yoldaşına verir, özünü yaxınlıqdakı Ceyhun çayına atıb həlak olur.

**K.Talıbzadənin**
**şəxsi arxivindən əlyazması**




Bakı. Dəniz kənarı. 1902-ci il



Şəkildə (soldan): bacısının həyat yoldaşı Mirzə Tağı, Abdulla Şaiq və qardaşı Yusif Ziya.1903-cü il







Abdulla Şaiq. Bakı. 1908-1909-cu illər

«1902-ci ildə görkəmli maarifpərvər Həbibbəy Mahmudbəyovun müdir olduğu altı sinifli məktəbin aşağı siniflərinə ana dili müəllimi təyin edildim».

**Abdulla Şaiq**



Abdulla Şaiq qardaş və bacısı uşaqları ilə. Bakı şəhəri, 1912-ci il







Abdulla Şaiq. 1909-cu il

«Molla Nəsrəddin»ə yazmağa başladıqdan sonra Sabir Səhhət ilə bərabər tez-tez Bakıya gəlirdilər. Bəzən onlar günlərlə Bakıda qalır, axşamlar çox zaman bizə gəlirdilər. O gün mənim üçün böyük bayram olurdu. Bu iki dost şairin şirin və səmimi söhbətləri məni o qədər məşğul edirdi ki, onlar getdikdən sonra yatağımda həmin şirin dəqiqələri, saatları yenidən xatırlayır, həyəcandan gözlərimə saatlarla yuxu getmirdi».

**Abdulla Şaiq**



Şəkildə (ikinci sıra, ortada): Süleyman Sani Axundov və Abdulla Şaiq şagirdlər arasında. Bakı. 1909-cu il



Abdulla Şaiq (birinci sırada sağda) Volqaboyu səfər zamanı öz həmkarları ilə. 1912-ci il







Abdulla Şaiq Volqa boyu səyahətində. Jiquli dağları. 7 iyul 1912-ci il

«...Ciyərlərimi bərk soyuq almışdı. Bir ay müalicədən sonra həkim yayı Stavropola gedib qımız (at südü) içməyi mənə tapşırdı. İyul ayında dəniz yolu ilə Stavropola (Volqa boyundadır) hərəkət etdim. Bakı gözdən itincəyə qədər özümü gözəl hiss edirdim. Xəzər dənizinin zənginliklərinə və ülvi fəzanın dərinliklərinə dalaraq təbiətdəki əsrarəngiz qüvvət və əzəməti böyük bir maraq və heyrət içində seyr edərək düşünürdüm...»

**Abdulla Şaiq**



Abdulla Şaiq bacısı Ruqiyyə xanımla



Abdulla Şaiq həmkarları arasında. Nalçik, 1916-cı il







Əgər Şaiq olmasaydı «Milli qiraət»imiz yox idi, «Müntəxəbat» nəşr olunmamışdı, «Ədəbiyyat dərsliyi»ndən məhrum idik. «Türk çələngi»ni görməmiş», «Türk ədəbiyyatı»nı eşitməmişdik.

Əgər bu kitablar olmasaydı məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı...

**Qafur Əfəndizadə Qantəmir**
**(1923)**



Abdulla Şaiq Əlbəndə Məlikovla birlikdə Nalçikdə istirahət edərkən, ev sahiblərinin ailəsi ilə. 1916-cı il

"1916-cı ildə Nalçikə getmişdim. Parka yaxın bir evdə otaq kirayə etdim. Həmin həyətdə mənimlə yan-yana iki otaqda Novorosiyski şəhərindən ailəsi ilə bərabər gəlmiş bir dəmiryol mühəndisi yaşayırdı. Həyətə çıxan uzun artırmanın qarşısında kiçik bir bağça vardı. Həmin mühəndis ilə tanış olduqdan sonra hər gün səhər qəlyanaltı edib onun ilə bərabər ya parka, ya yaxın meşəyə gəzməyə gedərdik..." O, rus ədəbiyyatını bir ədəbiyyatçı qədər gözəl bilirdi».

**Abdulla Şaiq**



Abdulla Şaiq (soldan ikinci sırada dördüncü) həmkarları arasında



Firudin bəy Köçərli

«Gözəl səpgidə və məzmunda yazdığınız məktub çoxdan yetişibdir. Amma vaxtım olmayıbdır ki, cavabını yazam. Bağışlayasınız, bu yay fəslinin bir hissəsini Dilican dağlarında keçirməniz bisəmər qalmayıbdır. Əvvəla, müvəqqəti olsa da, dünyanın qilü-qalından asudə gəzib qəlbinizə rahatlıq vermişsiniz. Saniyən, bizim dağların gözəl mənzərələri təbi-şeriyyənizə bir növ təhrik verib tazə fikirlərin və tazə xəyalların doğmasına səbəb olubdur. Və səlisən, «Dağlar sultanı» kimi gözəl bir əsərin vücudə gəlməsinə bais olubdur. Filhəqiqə, çobanların haqqında yazdığınız şerləri özümüz üçün və şagirdlər üçün oxumuşam. Onlara da çox xoş gəlib üzünü götürüblər. Onların xoşuna gəlməsinə səbəb şerlərin sadəliyi və həqiqi hissiyyatdan doğub vücudə gəlməsidir».

**Firudin bəy Köçərlinin**
**Abdulla Şaiqə məktubundan.**
**1924-cü il.**







Abdulla Şaiq

«...cansıxıcı bir dövrdə yaşadığımıza baxmayaraq, F.Köçərli, gözəl, yaxşı bir gələcəyə inanar, o zamanın gənc yazıçılarını fəaliyyət göstərməyə, xalqın gözünü açıb onu əsrlərin cəhalət qaranlığından xilas etmək üçün yazmağa, həm də yaxşı yazmağa çağırardı. Biz də bundan həvəslənər, mümkün qədər daha yaxşı yazmağa səy edər və əsərlərimizi onların ilk tənqidçisi olan F.Köçərliyə göndərərdik. Şəxsən mən «Tülkü həccə gedir», «Yaxşı arxa», «Tıq-tıq xanım», «Köç» və s. əsərlərimi ilk dəfə F.Köçərliyə göndərmişəm».

**Abdulla Şaiq**



Şəkildə (sağdan): Şahzadə xanım, Kamal, Abdulla Şaiq,
İldırım – xidmətçi qadının qucağında



Soltan Məcid Qənizadə (sağda) həmkarı ilə







Abdulla Şaiq Əli Mirzə Nərimanovla. Bakı. 1936-cı il



Abdulla Şaiq qələm dostları arasında. 1928-ci il



"Şaiq kimdir, Əvət hər kəscə o, çalışqan və təcrübəli bir müəllim, həssas, nazik bir şair, mehriban və səmimi bir insandır. Fəqət, məncə, gözə çarpan bir yıldızlı varlıqlardan daha böyük, daha möhtərəmdir."

**Hüseyn Cavid**
**1923-cü il**

Abdulla Şaiq İsmayıl
Hikmət və Hüseyn Cavidlə.
Bakı. 1924-cü il



Abdulla Şaiq, həyat yoldaşı Şahzadə xanım, böyük oğlu Kamal. Kislovodsk. 1924-cü il





«1924-1928-ci illər arasında dərc etdirdiyi bir sıra elmi-tənqidi oçerklər Abdulla Şaiqin Azərbaycan ədəbiyyatı sahəsindəki dərin biliyini göstərdiyi kimi, onun nəzəri-tənqidi mülahizələrinin metodoloji cəhətdən əsası olmasını da sübut edir. Bu illərdə Abdulla Şaiq «Füzuli haqqında düşüncələrim», «Molla Pənah Vaqif», «M.F.Axundov haqqında mülahizələrim», «M.F.Axundovun «Aldanmış kəvakib»i haqqında mülahizələrim», «H.Cavidin—«İblis» namhailəsi haqqında düşüncələrim» və s. məqalələrini nəşr etdirmişdir. Bu məqalələrdə Şaiq konkret təhlil yolu ilə gedərək ədəbi prosesi müəyyənləşdirən dövrə, yazıçıların yaradıcılığına, ayrı-ayrı əsərlərə düzgün qiymət verməyə, ədəbiyyatdan həyat həqiqətinin nə dərəcədə dolğun və düzgün əks olunmaşını meydana çıxarmağa çalışmışdır. Ədibi Azərbaycan ədəbiyyatında realizmin inkişafı problemi daha çox maraqlandırdığı üçün o, yazıçıların dövrlə, dövrün vacib məsələləri ilə bağlı olmasına diqqəti cəlb etmişdir. Şaiqin elmi-tənqidi məqalələri faktik material, ədəbi-bədii əsərləri duymaq, təhlil və tənqid üsulundakı xeyirxahlıq nöqteyi-nəzərindən də əhəmiyyətlidir.

Abdulla Şaiqin elmi-tənqidi irsini hərtərəfli öyrənmək, bu nadir şəxsiyyətin simasını bütün varlığı ilə dərk etməyimizə kömək edəcəkdir».

**Akademik Məmməd Arif**



Abdulla Şaiq üçüncü gimnaziyanın müəllim və şagirdləri arasında.
Bakı, 1912-ci il


بر نجی سنه
سنه تاسیسی
۱۳۲٤
دبستان
«دبستان» گ آیده بر دفعه
«والدینه‌مخصوص ورقه» نامیله علاوه‌سی
اوله جقدر

Abdulla Şaiqin «Anamın oğluna»
şeirinin dərc olunduğu «Dəbistan» məcmuəsi



Nəriman Nərimanov və arvadı Gülsüm xanım 1914-cü il

Möhtərəm Nəriman bəy Nərimanov cənablarına!

Nişan qoymuşsan eşitdim, xeyir olsun!

Dan yıldızı kimi bəxtin durulsun...
Fırtına, tufanlardan sonra əlbət,
Gözəl olur sakitlik, istirahət,
Yox, sən rahatlıq sevməyən atəşsən,
Əriyəcək qəhrinlə müdhiş düşmən.

**Abdulla Şaiq**
**Bakı, mart 1914-cü il**





«...qadınlara məxsus bir məcmuə nəşr etmək fikrinə düşdüm. Hətta 1914-cü ildə «Dan ulduzu» sərlövhəli bir şeir yazdım, məcmuənin cildində vermək üçün realni məktəbin rəssamına şeirin məzmununa münasib bir şəkil çəkdirdim. Rəsm sökülməkdə olan dan yerini təsvir edirdi. Ziyalı Azərbaycan qızı çiçəkli çəməndə dayanaraq bir əlində al bayraq tutmuş, digər əlini də o biri tayda qaranlıqlar içində boğulmaqda olan çarşablı qızlara tərəf uzatmışdı. Bu qız əsrin elm və texnikasının, qadın azadlığının rəmzi olduğu kimi azadlıq və inqilabın da rəmzi idi. Bayrağın üstündə «Dan ulduzu» sözləri yazılmışdı. Bir gün söhbət əsnasında bu məcmuə haqqında və onun nəşri ilə əlaqədar olan fikirlərimi Nərimana söylədim, yazdığım şeiri oxuyub, çəkdirdiyim rəsmi də göstərdim. Nəriman mənim təşəbbüsümü bəyəndi. Jurnalı birlikdə nəşr etməyə qərar verdik.

Bu vaxt inqilabi fikirli ziyalılar şiddətli surətdə təqib edilirdilər. Nəriman siyasi dustaq olduğu zaman naşirlik hüququndan məhrum edildiyindən jurnalın məsuliyyətini mən öz üzərimə almalı idim. Bir gün bərabər oturub məcmuənin nəşrinə dair şəhər hakimindən icazə almaq üçün ərizə yazırdıq. O, qələmi əlinə aldı. Bir az düşündükdən sonra mənə gülə-gülə baxaraq:

--Qorxuram,--dedi.

--Nədən qorxursan?

--Səni məsuliyyətə cəlb edəcəklərindən.

--bir az ehtiyatlı yazarıq.

O, qələmi əlimdən alıb masaya qoydu, bir də gülümsündü və dedi:

--Başımda necə fikirlər olduğunu bilsən bu məcmuənin çıxmasına razı olmazsan.

--Nə fikirlər?

--Bu üsuli-idarəyə qarşı qəlbim üsyan ilə dolmuşdur. Mən qələmimi saxlaya bilməyəcəyəm. Bu zaman ən ağır zərbələr də mənə yox, mənim ucumdan sənə dəyəcək. Çünki sahibi-imtiyaz və məsul sən olacaqsan!

--Məni nə üçün qorxudursan?

--Qorxutmuram, doğru deyirəm, bu məcmuə hələlik qalsın. Görək bu dava nə göstərəcək! Sonra işə ciddi başlayarıq.

Nərimanın son sözü məni də düşündürdü. Beləliklə məcmuə nəşr olunmadı».

**Abdulla Şaiq**



Darülmüəllimdə A.Şaiqin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin üzvləri:
Mirzəağa Quluzadə, Cabbar Əfəndizadə, Şəfiqə Əfəndizadə, Abdulla Şaiq, Ağababa Musaxanlı Bakı, 1926-cı il

«Möhtərəm Abdulla Şaiqin xidmətlərini heç kimsə unutmayacaqdır.

Azərbaycanda olan bu intibah dövrünün ən böyük qəhrəmanı sayılan Abdulla Şaiqin adı dünya durduqca tarixi-ədəbiyyatımızda baqi qalacaq və o vaxtın bütün qəlbləri onu daim hörmətlə anacaqdır."

**Şəfiqə Əfəndizadə**
**1923-cü il.**







Abdulla Şaiq həmkarları arasında

"Yeni ədəbiyyatın təməl daşını qoyanlardan biri Abdulla Şaiqdir".

**Seyid Hüseyn**
**1923-cü il.**



Abdulla Şaiq

«...Şaiq öz biliyi, insani rəftarı, tələbələrə göstərdiyi atalıq qayğısı ilə müəllimlər içərisində xüsusi yer tuturdu. Bu gün belə tələbəlik günlərinin sönməz bir xatirəsi olaraq Şaiqə dərin ehtiram hissləri yaşayır və yaşayacaqdır.

Bu unudulmaz insan, böyük sənətkar və hörmətli müəllimin xatirəsi qarşısında diz çöküb təzim edirik».

**Akademik Yusif Məmmədəliyev**







Abdulla Şaiq oğlu Kamalla
Bakı, 1928-ci il



C.Cəbrayılbəyli, A.Şaiq, S.Acalov. Bakı, 1958-ci il

«Ədəbiyyat və dil tədrisi sahəsində ən təcrübəli və məlumatlı mütəxəssislərdən biri Şaiq idi. O, dərs dediyi tələbələrə ədəbiyyat nəzəriyyəsi və tarixini öyrətməkdən başqa, onların ümumi ədəbi, mədəni inkişafı üçün də böyük səylə çalışırdı...

Qocaman müəllimin 1920-ci illərdə dərs dediyi məktəbə «Şaiq nümunə məktəbi» adı verilmişdir. Bu məktəbi yüzlərlə istedadlı gənc bitirmişdir».

**Cəmo Cəbrayılbəyli,**
**1956-cı il.**







Abdulla Şaiq həmkarları arasında



Abdulla Şaiq Ali Pedaqoji institutunun məzunları və müəllimləri arasında.
Bakı, 1946-cı il

«Bu dünyada gözəl şair, həssas müəllim, nəcib bir insan yaşadı. Zaman ömrün qələmi ilə tarixə «ŞAİQ» sözü həkk etdi. O, «şövq» kimi nur saçdı, «Günəşin zərrəsi» kimi kövrək, narın, zərif bir işığa bənzədi; yandı, xəfif, zərrə-zərrə... Bu parlaq ziyanı, «günəşin zərrəsini» tarixdə yeni bir dövrün sabahı, məktəb, maarif və sənət al bir şəfəqə boyadı!».

**Yaşar Qarayev.**



Qılman Musayev və Abdulla Şaiq

«1924-1928-ci illər arasında dərc etdirdiyi bir sıra elmi-tənqidi oçerklər Abdulla Şaiqin Azərbaycan ədəbiyyatı sahəsindəki dərin biliyini göstərdiyi kimi, onun nəzəri-tənqidi mülahizələrinin metodoloji cəhətdən əsası olmasını da sübut edir. Bu illərdə Abdulla Şaiq "Füzuli haqqında düşüncələrim", "Molla Pənah Vaqif", "M.F.Axundov haqqında mülahizələrim", "M.F.Axundovun "Aldanmış kəvakib"i haqqında mülahizələrim", "Hüseyn Cavidin - "İblis" haqqında düşüncələrim" və s. məqalələrini nəşr etdirmişdir. Bu məqalələrdə Şaiq konkret təhlil ilə gedərək ədəbi problemi müəyyənləşdirən dövrə, yazıçıların yaradıcılığına , ayrı-ayrı əsərlərə düzgün qiymət verməyə, ədəbiyyatdan həyat həqiqətinin nə dərcədə dolğun və düzgün əks olunmasını meydana çıxarmağa çalışmışdır. Ədibi Azərbaycan ədəbiyyatında realizmin inkişafı problemi daha çox maraqlandırdığı üçün o, yazıçıların dövrlə, dövrün vacib məsələləri ilə bağlı olmasına diqqəti cəlb etmişdir. Şaiqin elmi-tənqidi məqalələri faktiki material, ədəbi-bədii əsərləri duymaq , tənqid və təhlil üsulundakı xeyirxahlıq nöqteyi nəzərindən də əhəmiyyətlidir.

Abdulla Şaiqin elmi -tənqidi irsini hərtərəfli öyrənmək, bu nadir şəxsiyyətin simasını bütün varlığı ilə dərk etməyimizə kömək edəcəkdir".

**Akademik Məmməd Arif.**







Azərbaycan Yazıçıları İttifaqında.
Şəkildə (soldan): Nazim Hikmət, Süleyman Rəhimov
Abdulla Şaiq

Nə diyorlar, bəşərlə firdovsə
Dönəcəkmiş, deyilmi dünyamız?!
Biri: «İnsan mələk olurmu?»--desə,
Bən derim: Bir misalı var bakınız,
Bu təbii şüari-munislə,
Bəncə: Şaiq nümunədir mələkə!..

**İsmayıl Hikmət,**
**Türk alimi.**



Abdulla Şaiq

Dünyada nə həsəd bildim,
nə də kin,
İpəkdən yumşağam,
poladdan kəskin,
Uymadım sərvətə, ada
şöhrətə,
Uymadım mənasız kefə, işrətə.
Elimin, ölkəmin doğma
oğluyam,
Maskam da olmamış
nəyəmsə buyam.
Sarsılmaz inamım və
iradəm var,
Bunlardır yaşadan məni
bəxtiyar.

**Abdulla Şaiq**







Moskvada keçirilən Birinci Azərbaycan ədəbiyyatı
ongünlüyünün iştirakçıları

«Abdulla Şaiqin insanpərvərlik təbliğ edən məşhur şeirlərindən biri «Həpimiz bir günəşin zərrəsiyiz» sərlövhəli, bir qədər mahnı ruhunda, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış şeirdir. 1910-cu ildə yazılmış bu əsərdə insanlığa səmimi bir xitab vardır. Şaiqin fikrincə, bəşər əslən qardaş yaranmışdır. İnsanlar hamısı bir günəşin şüasından əmələ gəlmiş, bir ananın, təbiətin qoynunda böyümüşlər».

**Mir Cəlal,**
**1974-cü il.**



«Qafqazın müdafiəsi» medalı ilə təltif olunmuş Azərbaycan yazıçıları.
Bakı, 1944-cü il

«Abdulla Şaiq yazıçı, maarif xadimi və insan olaraq bizim ədəbiyyat tarixində nadir şəxsiyyətlərdən biridir. Onun adı indi də işıq saçır, indi də böyük hörmətlə yad edilir. Uşaqlarımız onun əsərlərini indi də maraqla oxuyub fərəhli xəyallara dalırlar.

Bu elə belə də davam edəcək. Çünki onun nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular, xeyirxah arzular baş qaldırmışdır. Onun yazdıqları, onun şəxsiyyəti insanlara daim yaxşılıq təlqin etmişdir. Çünki o, yazdıqlarında da, həyatda da daim səmimi olmuşdur... Şaiqə sönməz maraq və hörmətin də sirri bundadır».

**İlyas Əfəndiyev,**
**Xalq yazıçısı.**









Azərbaycan Yazıçılar İttifaqında. Səməd Vurğun
Abdulla Şaiqə "Qafqazın müdafiəsi uğrunda" medalını təqdim edir. 1946-cı il



«Şaiq mahir bir sənətkar, mükafatını daima vicdanından almaq istəyən gözəl bir insan, dərs verdiyi tələbələri öz doğma balaları kimi sevən həqiqi bir xalq müəllimidir... O, demokratik Azərbaycan ziyalılarının ən tipik və ən görkəmli nümayəndələrindən biridir».

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı.**







«Abdulla Şaiq – Azərbaycan uşaq ədəbiyyatının əsas yaradıcılarından biri və bu ədəbiyyatın inkişafı-tərəqqisi yolunda müstəsna xidmətləri olan görkəmli sənətkardır. Uşaq ədəbiyyatımızı Şaiqsiz təsəvvür etmək çətindir, bəlkə də mümkün deyil. İnqilabdan əvvəl, eləcə də, ondan sonrakı illərdə bu ədəbiyyatın özünəməxsus bir şəraitdə doğulub böyüməsi, A.Şaiqin vətəndaşlıq, müəllimlik və vətənpərvərlik xidmətləri ilə bağlıdır».

**Ədəbiyyatşünas-alim**
**Məsud Əlioğlu**



Abdulla Şaiq dostları və tələbələri arasında (1958)



Abdulla Şaiqin yaşadığı bina.
Hazırda şairin mənzil muzeyi burada yerləşir







«Folklor mənə xalq dilini, xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi, xalqı və vətəni dərindən sevdirdi».

**Abdulla Şaiq**



Abdulla Şaiq həyat yoldaşı Şahzadə xanımla



Abdulla Şaiq və sevimli nəvəsi Ülkər. 1959-cu il







Abdulla Şaiq, Əziz Mirəhmədov və Kamal Talıbzadə ailəlikcə
Kislovodsk kurortunda. 1958-ci il



Abdulla Şaiq, Kamal Talıbzadə, Şahzadə xanım

«Mənim ilk ən böyük müəllimim atam Abdulla Şaiq olmuşdur. Elə bil lap uşaqlıqdan onun genlərinin, ruhunun damarlarımda, qanımda cərəyan etdiyini duymuşam, bəzən elə olur ki, aynaya baxanda elə bilmişəm ki, atamla üz-üzə dayanmışam, elə bilmişəm ki, gözlərimin düz içinə baxır, diksinmişəm. Görünür, son vaxtlarda atamı görənlərin, tanıyanların: «Elə bil Mirzəni itələyib lap yerində dayanmısan» demələri də boşuna deyil. Əgər belədirsə, taleyimdən razıyam».

**Kamal Talıbzadə.**







«Ədəbiyyatçılar nə yaparlar?» – deyənlərdən «Şaiq nə yapdı?! — soracağam. Şaiq yazılarını adi qələmlə kağızlara yazmamış, qüdsi bir əllə qəlblərə qazmışdır».

**Mikayıl Rzaquluzadə,**
**1923-cü il.**



Abdulla Şaiq iş otağında

«...həmişə gözümün qarşısında şahidi olduğum iki lövhə canlanır: keçmiş və bu gün. Bu iki lövhə məndə boranlı və dumanlı günlərdən sonra günəşli yaz səhərinə qovuşmuş adamlarda olan bir hal doğurur. Bu, çox təbiidir. Müdhiş fırtınalardan və əzici iztirablardan sonra həyat nə qədər dadlı olurmuş. Bu zövqü, bu sevinci mən bütün qəlbimlə duyuram».



Şahzadə xanım oğlu Kamal Talıbzadə ilə



İldırım Talıbzadə
Abdulla Şaiqin kiçik oğlu







«Cavid ilə ilk tanışlığım 1905-ci ildə oldu... Yaxın dostluğumuz isə 1910-cu illərdən sonra başlandı. İstanbuldan yenicə dönmüş və hələ böyük şöhrət qazanmamış gənc şairin arabir «Tərəqqi» və «Yeni həyat» qəzetlərinin səhifələrində «Salik» imzası ilə yazdığı mənzumələrini oxuyurdum. 1910-cu ildə yazdığı bir pərdəli «Ana» dramı məndə onun həm böyük şair, həm də böyük dramaturq olacağı qənaətini oyatdı. Şair dostlarımın hamısından ziyadə Cavid ilə görüşür və boş vaxtlarımızı əksərən bir yerdə keçirirdik. 1914-cü ildə nəşr etdiyi «Şeyx Sənan» faciəsini böyük maraqla oxumuş, görüşürkən onun böyük müvəffəqiyyətini səmimi qəlbdən təbrik etmişdim. Cavidin şah əsərləri, şübhəsiz «Şeyx Sənan» ilə «İblis» faciələridir. «İblis»i 1919-cu ildə başlamış, 1920-ci ildə bitirmişdi. Şair bu iki qiymətli əsəri ilə yaradıcılığının ən yüksək zirvəsinə qalxmış, kamal dövrünü bulmuşdu».

**Abdulla Şaiq,**
**1953-cü il.**



«Şaiq kimdir?

İyirmi ildən bəridir ki, bütün Azərbaycan gəncliyi onu gözəl tanıyır. Əvət, hər kəscə o çalışqan və təcrübəli bir müəllim, həssas, nazik bir şair, mehriban və səmimi bir insandır».

**Hüseyn Cavid,**
**1923-cü il.**







SSRİ Ali Sovetinin qurultayında iştirak edən Azərbaycan nümayəndələri.
Moskva, Kreml (Abdulla Şaiq öndə sağdan ikinci)



Bakının 190 nömrəli orta məktəbinin direktoru Zərbəli Səmədov
öz şagirdləri ilə Abdulla Şaiqin görüşündə. 1946-cı il

Xalqımızı sevin, yaxşı oxuyun, dövrünüzün mədəni, irəli getmiş adamları olun. Qoca bir müəllim, saçı, saqqalı ağarmış bir yazıçı öz sevimli balaca vətəndaşlarına bundan başqa nə arzu edə bilər?!

**Abdulla Şaiq,**
**1958-ci il.**



«Abdulla Şaiq zəmanəsinin gözüaçıq ziyalılarından idi. Tiflis kimi bir şəhərdə yaşadığından, əsrin mədəni həyatı ilə tanış olduğundan, o, yenilik, mədəni hərəkat eşqi ilə alovlanırdı. O da öz xalqının cəhalətdən xilas olmasına çarələr axtarardı. A.Şaiqin fikrini həmişə məşğul edən azad mədəni həyat, müasir ictimai məsələlər, xalqın dərd və ehtiyacları idi...

A.Şaiqin insanpərvərlik təbliğ edən məşhur şeirlərindən biri «Həpimiz bir günəşin zərrəsiyiz» sərlövhəli, bir qədər mahnı ruhunda, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış şeirdir. 1910-cu ildə yazılmış bu əsərdə insanlığa səmimi bir xitab vardır. Şairin fikrincə, bəşər əslən qardaş yaranmışdır. İnsanlar hamısı bir günəşin şüasından əmələ gəlmiş, bir ananın, təbiətin qoynunda böyümüşlər. Dil, din, məkan, dövlət, əqidə ayrılığı və ixtilaf insanlar arasında sonradan salınmışdır. Bunlar insanın təbiətinə zidd, süni ixtilaflardır. Şüurlu, mədəni insanlar bu ixtilaflara uymamalıdır. İctimai məhəbbət və bəşəri qardaşlıq daim insanları ümumi səadətə aparmalıdır...

**Mir Cəlal,**
**1974-cü il.**







Şaiq həqiqəti hər şeydən uca tutan, daima həqiqət axtaran, tərəqqi və yüksəliş yolunda fədakarcasına çalışan bir yazıçı olmuşdur.

A.Şaiq elə yazıçılardandır ki, onun əsərləri mübarizəmizə, inkişafımıza, gələcəyimizə kömək etmiş və edəcək!

**Mirzə İbrahimov,**
**Azərbaycanın xalq yazıçısı,**
**akademik**



Kamal Talıbzadə, Abdulla Şaiq, Zərbəli Səmədov. 1946-cı il

«1901-ci ildən müəllimliyə başlayan Abdulla Şaiqin dövrünü bir anlığa gözümüzün qabağına gətirək. Yeni açılan Azərbaycan məktəblərində ana dili keçmək üçün birinci dərs kitablarını («Birinci il», «Uşaq gözlüyü», «İkinci il», «Üçüncü il» və ya «Yeni məktəb» və s.) müəllimlər özləri yaradırdılar. Bu müəllimlərdən biri və ən fəalı Abdulla Şaiq idi. Dərs kitabları üçün bədii parçaların hazırlanmasında da Abdulla Şaiq fəal iştirak edirdi. Bu dövr maarif və mədəniyyətimizin inkişafında birikmə dövrü idi. Sabirin, Səhhətin və Şaiqin ən kiçik şeirləri, tərcümələri dərs kitablarına qiymətli bir hədiyyə kimi daxil olurdu. Sabirin «Ağacların bəhsi», «Uşaq və buz», «Cütçü», Səhhətin «Quşlar», «Tənbəl», «Bağça» və «Köç» şeirləri ilə yanaşı, Şaiqin də «Quzu», «Əkinçi», «Keçi», «Əkin nəğməsi», «Payız» kimi qısa, gözəl şeirləri dərc edilir, oxunur və sevilirdi».

**Akademik Məmməd Arif,**
**1971-ci il.**







Abdulla Şaiq və Əziz Mirəhmədov

«Abdulla Şaiqin «Füyuzat» jurnalına münasibətindən və ədibin dünyagörüşündəki inkişafdan söhbət gedəndə bəzən belə fikrə təsadüf olunur: guya o, bir-birinə tamamilə zidd olan «Füyuzat» ilə «Molla Nəsrəddin» arasında təzadlı və həyəcanlı hallar keçirir. Bizcə, Şaiqin «Füyuzat»a münasibətini şair üçün təzadlı və həyəcanlı bir hal kimi qiymətləndirmək doğru olmaz. Siyasi-ictimai bir cəbhə kimi «Füyuzat» Şaiqin yaradıcılığında böyük rol oynamamışdır. İlk şeirlərindəki sentimental-romantik və çox vaxt da bədbinlik ifadə edən əhvali-ruhiyyəyə gəldikdə bunu Füyuzat»la yox, ümumiyyətlə şairin romantika ilə realizm arasındakı tərəddüdlərində axtarmaq lazımdır. Əgər Şaiqin realizmi onun maarif aləmindəki fəaliyyəti, müəllimliyi ilə, daha doğrusu real, praktiki fəaliyyəti ilə bağlı idisə, romantizmi zəminəsiz xəyalpərvərliyi, mücərrəd humanizmi ilə əlaqədar idi».

**Akademik Məmməd Arif,**
**1971-ci il.**



Abdulla Şaiq və Səməd Vurğun

Şaiqim! Şairlər içində təksən!
Təmiz vicdanınla gülsən, ipəksən.
Dilindən küsməmiş tanış da, yad da,
Səndən inciməmiş qarıncalar da...
Keçdi qaranlıqda odlu gəncliyin,
Xoş olsun indiki qulaqdincliyin...
Əməlin qurtuluş, varlığın sənət,
Yaşasın qardaşlıq, bir də məhəbbət!
İndi «bir günəşin zərrəsiyik biz»,
Var olsun birləşən dost əllərimiz.

**Səməd Vurğun,**
**1936-cı il**







"Şaiq kiçik yaşlı uşaqlardan tutmuş böyüklərə qədər, bir sözlə, hamı üçün, həm də ədəbiyyatın demək olar ki, hər janrında yazıb-yaratmış, yüksək yaradıcılıq nailiyyətləri əldə etmişdir. Uşaq ədəbiyyatı kimi çətin, lakin şərəfli bir sahədə uzun müddət səmərəli fəaliyyət göstərməsi, gələcək nəsillərin tərbiyəsinə xidmət edə biləcək zəngin irs qoyub getməsi Şaiqi Azərbaycan ədəbiyyatı, ictimai-bədii fikri və mədəniyyəti tarixində yaşadacaq əsas amillərdən biridir".

**Yaqub İsmayılov,**
**filologiya elmləri doktoru**



«Şaiq müəllimin söhbətinin təfsilatı yadımda deyil, məzmunu isə bundan ibarət idi: ictimai həyata qədəm qoyduğum illərdə, əsrimizin əvvəllərində xalqımızın irəlidə gedən adamları əlverişli şəraitdən istifadə edərək hər kəs bacardığı işlə xalqa kömək edirdi... Mən müəllimlikdən başlamışam və ömrümün axırına kimi də görünür ondan əl çəkməyəcəyəm. Müəllimlik bizim xalqımıza ən çox lazım olan bir sənətdir. Mən müəllimlikdən aldığım zövqü heç bir şeydən ala bilmirəm. Axı, mən yazıçılıqda da müəlliməm, məni yazıçılığa sövq edən də əsasən müəllimlik olmuşdur. Həqiqi müəllimin fəaliyyət dairəsi yalnız məktəb deyil, bütün cəmiyyətdir, xalqın həyatıdır. Mən müəllimliyə təzə başlayan vaxtlarda milli məktəblərdə dərs kitabı böyük bir problem idi. Dərs kitabı ilə də iş aşmırdı, şagirdlərə evdə oxumaq üçün, bədii qiraət üçün əlavə vəsait də lazım idi. Məgər vicdanı olan və bir qədər də yazıçılıq bacaran müəllim buna dözə bilərdimi? Odur ki, dərs kitabları yazmaqla bərabər, uşaqlar üçün ədəbiyyatdan, ana dilindən yararlı vəsait də hazırlamalı oldum, hekayələr, şeirlər, dramlar yazdım, beləliklə də müəllimliyi yazıçılıqla birləşdirdim. İndi mən sizin sualınıza nə cavab verə bilərəm? Mənim əsas dərs vəsaiti kimi yaratdığım və az-çox müstəqil bədii dəyərə malik əsərlərdən aldığım zövq də müəllimlik kimi müqəddəs vəzifədən aldığım zövqün bir hissəsi deyilmi?

Abdulla Şaiq tənqiddən çox təsdiqi sevir, yaxşılığı nümunə göstərir, bu da onun müəllimliyindən irəli gələn bir xüsusiyyətdir. İnsanlara yaxşılıq etmək, həyatda faydalı iş görmək, qardaşlığa-dostluğa kömək etmək, bir sözlə—insan olduğunu sübut etmək. Şaiq öz hekayələrində nəcib insanlardan elə bəhs edir ki, elə bil xatirə söyləyir, elə bil öz başına gələnləri nağıl edir. Bu üsul onun hekayələrinə bir səmimiyyət, lirik ruh gətirir, əsərlərinin bədii təsirini qüvvətləndirir».

**Akademik Məmməd Arif.**







«Abdulla Şaiq xoşbəxt yazıçıdır, çünki o, insanlığa səadət gətirən yüksək idealların vətənimizdə necə həyata keçdiyini öz gözləri ilə gördü və bu mübarizədə sadə bir seyrçi kimi deyil, mübariz bir vətəndaş kimi iştirak etdi. Təmiz arzu və xəyallarla yaşamaq xoşdursa, bu arzu və xəyallara çatmaq əsl səadətdir. Belə bir səadət Abdulla Şaiqə nəsib olmuşdur».

**Mirzə İbrahimov,**
**Xalq yazıçısı,**
**akademik**



«Sadəlik, təvazökarlıq Şaiqdə daima nəzərə çarpan səciyyəvi xüsusiyyətlərdən biri idi...

Görüşlərdə «Böyük xalq müəllimi və şairi Abdulla Şaiq» haqqında çox tərif eşidəndə özünü yaxşı hiss etmirdi. Hətta bir qədər əsəbiləşən kimi də olurdu. Hiss edirdin ki, xüsusi fəlsəfəsinə görə «o da minlərcə sadə vətəndaşlardan biri idi». Bəlkə Şaiq artıq böyük şöhrətə nail olduğuna görə belə sadə, təvazökar olmuşdu? Axı, Şaiq və onun mənsub olduğu yazıçılar nəslinin əxlaq normalarına görə ağac bar gətirdikcə başını aşağı dikməli idi. Bəlkə daha Şaiqin bundan artıq şöhrətə ehtiyacı yox idi( bəlkə zəngin həyat təcrübəsi nəticəsində o, belə bir qəti qənaətə gəlmişdi ki, şöhrətpərəstlik lüzumsuz işdir?»

**Akademik**
**Məmməd Cəfər Cəfərov.**




Şəkildə (soldan) Kamal Talıbzadə, Abdulla Şaiq, Rəfiqə xanım Talıbzadə.
Jeleznovodsk sanatoriyası. 1956-cı il



Kamal Talıbzadə və Abdulla Şaiq. 1947-ci il







Sovet İttifaqı qəhrəmanı, təyyarəçi Adil Quliyev Ədəbiyyat İnstitutunun əməkdaşları arasında

"...Şaiqin bütün həyatı xalqımızın həyatı ilə qırılmaz tellərlə bağlı olmuşdur. Şaiq yaradıcılığının dili, üslubu, mövzuları xalq kütlələrinin, xalqın böyük əksəriyyətini təşkil edən orta təbəqələrin dili, ruhu, düşüncə səviyyəsi, idrak dərəcəsi və həyatı ilə sıx bağlı olmuşdur. Bu cəhətdən o, tam mənası ilə xalq yazıçısı idi. Xalq üçün yazırdı, xalqı düşünürdü, xalqa xidmət edirdi. Şaiq öz dərdini xalqın dərdi, yaxıd xalqın dərdini öz dərdi bilən alicənab insanlardan idi. O hələ 1907-ci ildə yazırdı:

Doktor, yetər, əl çək, olamaz dərdimə çarə,
Olmazsa muradımca bu aləmlərə təğyir".

**Əkrəm Cəfər,**
**ədəbiyyatşünas alim.**



"Abdulla Şaiq bir vətəndaş, sənətkar, müəllim kimi yüksək məqsədlər izləmiş, oxuculara nəcib fikir və duyğular aşılamaq, bütün varlığı ilə bağlandığı xalq ədəbiyyatını, onun ayrı-ayrı motivlərini yenidən yaşatmaq, Azərbaycan dilinin zənginliklərini aşkara çıxarıb xalqın istifadəsinə, gənc nəslin tərbiyəsi işinə vermək yolu ilə getmişdir..."

**Süleyman Rüstəm**
**Xalq şairi**





## MÜƏLLİMİM ŞAİQƏ

Sən yola saldıqca illəri—Vətən
Oldu başdan-başa gülüstan, Şaiq.
Baxıb alnındakı qırışıqlara
Olmadın zərrəcə pərişan, Şaiq.

Dağların başı tək ağardı başın,
Çiçəklər bitirdi torpağın, daşın.
Dedin: Ey qocalıq fikrindən daşın!
Axtardın hər dərdə min dərman, Şaiq.

Səni əzizləyir, yaxşı fikir ver,
İgidlər yetirən bu torpaq, bu yer.
Qızıl qalstuklu nəvən-pioner
Sənə hörmət bəslər hər zaman, Şaiq.

Səni gənc saxladı gəncliyin səsi,
Könlündə dinləndi bahar nəğməsi,
Tükənməz şairin eşqi, həvəsi
Kəssə də yolunu qar, boran, Şaiq.

Coşqun ilhamını Vətəndən aldın,
Saz tutub, söz qoşub xəyala daldın
Səməd, mən «qocaldıq», sən cavan qaldın
Ey körpə ürəkli qocaman Şaiq.

Səndə təbiət var ipəkdən yumşaq,
Böyüklə böyüksən, uşaqla uşaq.
Yüz yaşı gəl birgə adlayıb aşaq
Bir də ələ düşməz bu dövran, Şaiq.

**Süleyman Rüstəm,**
**1956-cı il**



"Azərbaycan xalqı Abdulla Şaiqi öz arzuladığı kimi «Şaiqanə» yad edir, onun zəngin irsini nəsildən-nəsilə yaşadır. Çünki Şaiq ömrü boyu hamını— cavanı da, qocanı da, uşağı da böyük məhəbbətlə tərənnüm etmişdir. O, yazıçı, pedaqoq, maarif xadimi, tənqidçi, ədəbiyyatşünas, dilçi, dərslik müəllifi, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik vətəndaş və şəxsiyyət kimi imic qazanmışdır."

**Fatma Əliyeva, filologiya elmləri namizədi.**



Abdulla Şaiqin şagirdlərlə görüşü 1955-ci il







Abdulla Şaiq və Zərbəli Səmədov
Bakı şəhəri, 90 saylı məktəbin şagirdləri ilə



«Uşaqlar üçün bədii əsərlər yaratmaq, mədəniyyət ocaqları açmaq təşəbbüsləri mütərəqqi fikirli ziyalıları düşündürürdü.

Gənc nəslin təlim və tərbiyəsi ilə qızğın məşğul olan ziyalılar sırasında müəllim və yazıçı Abdulla Şaiq çox çalışırdı. Onun bu sahədəki fəaliyyətinin ən diqqətəlayiq xüsusiyyəti çoxcəhətli, ardıcıl, səmərəli olması idi».

**Əziz Mirəhmədov, Azərbaycan EA-nın müxbir üzvü, professor**



"Şaiqin ölümü yalnız Talıbzadələr evində deyil, onun yüzlər, minlərcə sevənlərinin öz evlərində, öz ailələrində baş vermiş böyük bir müsibət kimi ürəkləri inlətmişdir. Bütün şərəfli həyatını başdan-başa o qədər sədaqət və saf niyyətlə, o qədər fəzilət və qüdsiyyətlə doğma xalqına həsr etmiş, hətta, deyə bilərik, fəda etmiş bir adamın vəfatının belə dərin təsiri, şübhəsiz, təbii idi. Təbiət Şaiqə beş-on nəfərdən ibarət bir ailə vermişdi. Şaiq isə öz təbiəti və sənəti ilə vətənində özünə saysız pərəstişkarlarından ibarət minlərcə bir ailə yaratmışdı.

Tariximizin son əsrinin bütün savadlı, mədəni azərbaycanlılarnıda, onların ruhunda Şaiqin saçdığı işıqdan şölələr vardır.

...ruhən ən böyük, ən saf qəlbli, ən alicənab təbiətli insan xatirələrdə bir nur heykəli kimi yaşayan Şaiq olmuşdur."

**Əkrəm Cəfər,**
**Ədəbiyyatşünas alim.**







Abdulla Şaiqin dəfn mərasimi. Bakı, 1959-cu il

## Abdulla Şaiqin xatirəsinə

"Böyük bir yazıçının, sənətkarın qələmi əlindən düşdü!—dedilər.

Nəcib, gözəl, xeyirxah bir insanın ürəyi dayandı!—dedilər.

El yığıldı, dostlar gəldi, qohum-qardaş, oğul-uşaq töküldü;--Gəlin çiynimizə alaq, son mənzilə aparaq,--dedilər.

Apardılar. Ədəblə, hörmətlə, adına-sanına layiq bir şərəflə dəfn elədilər, son torpağı tökub: «Gəlin, vidalaşaq»,--dedilər.

Onu torpağa tapşırıb, məzarını tərk etdilər; kimi bir az tez, kimi bir az gec... hamı getdi!..Düşünə-düşünə, mükəddər, başlarını aşağı dikə-dikə getdilər... Gedə-gedə iki nəfər bir-birinə baxıb həkimanə:--«Bəli, bu gündən bu da qarışdı min ilin ölülərinə»,--dedilər.

Yox!.. sonuncunu düz demədilər, Mirzə, düz demədilər! Axı, sən min ilin dirilərinə qarışdın! Sən nizamilərə, füzulilərə, vaqiflərə, mirzə fətəlilərə, sabirlərə, mirzə cəlillərə, cəfərlərə, üzeyirbəylərə qarışdın!"

**Gülhüseyn Hüseynoğlu,**
**26 iyul, 1959-cu il.**

Atəşli, munir əməllərinlə
Bir gün düşərəm soyuq məzara.
Əşari-təranəpərvərimlə
Bir gün susaram dönüb qubarə.
Bəqta ki, bu şairi-vətəndən
Dünyada nə iz qalar, nə bir nam,
Üzdükcə səadət içrə şən-şən,
Sürdükcə dəmadəm ömrü-xoşkam,
Yad et məni-qaibanə yad et!

**Abdulla Şaiq**



Dəfn günü, Abdulla Şaiqin məzarı başında.
Fəxri Xiyaban. Bakı, 30 iyul 1959-cu il





## Həmişə yaz olar

(Sevimli yazıçımız A.Şaiqin vəfatı münasibətilə)

Yerə kök atmayan qalxıb ucalmaz
Sözlərin gücünü torpaqdan aldı.
Ulduzlar batanda izi də qalmaz
Sən batdın,
Şəfəqin dünyada qaldı.

Keçər qərinələr,
Ötər neçə il,
Həmişə yaz olar sənət bağında.
Sözlərin gələcək nəsilbənəsil
Körpə balaların gül dodağında.

Sənət yollarında dayandın mətin,
Səni sarsıtmadı nə dərd, nə ələm.
Neçə sənətkarın, neçə alimin
Gözünə nur verdin, əlinə qələm.

**Bəxtiyar Vahabzadə,**
**1959-cu il**



Abdulla Şaiq

"...Abdulla Şaiqdən tək bir yazıçı, pedaqoq və maarif xadimi, yalnız tənqidçi, ədəbiyyatşünas və dilşünas kimi yaxud dərsliklər müəllifi, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik vətəndaş və şəxsiyyət kimi ayrı-ayrılıqda danışmaq və onun haqqında tam təsəvvür oyada bilməz, buna ancaq ədibin çoxşaxəli fəaliyyətini tam halda əhatə etmək və mənalandırmaqla nail olmaq mümkündür".

**Kamal Talıbzadə**





"Abdulla Şaiq şair, nasir, ədəbiyyatşünas, tərcüməçilik fəaliyyəti ilə yanaşı dramaturgiya ilə də məşğul olub. Azərbaycan mədəniyyəti tarixində uşaq dramaturgiyasının banisi kimi məşhurlaşıb. O, 1910-cu ildən başlayaraq dram əsərləri yazıb. "Gözəl bahar" pyesi ilə Azərbaycan uşaq dramaturgiyasının əsasını qoyub. Bundan sonra o bir-birinin ardınca "Danışan kukla", "Çoban Məmiş", "Kimdir haqlı" (təbdil), "Yazıya pozu yoxdur", "Ay doğdu", "Həqiqətə doğru", "İldırım", "Şair və qadın" pyeslərini yazıb... Eyni zamanda dram əsərləri sırasında Nizami Gəncəvinin "İsgəndərnamə" əsəri əsasında qələmə aldığı "Nüşabə", "Sirlər xəzinəsi" əsasında "Fitnə", Süleyman Sani Axundovun eyniadlı əsəri əsasında Qaraca qız" pyeslərini də göstərmək olar."

**Roza Bağırova,**
***Dövlət tarix Arxivinin***
***aparıcı arxeoqrafı***



Abdulla Şaiq adına Dövlət Kukla Teatrı. Bakı şəhəri



Abdulla Şaiqin «El oğlu» pyesindən bir səhnə








"Gözəl yaz fəsli" adlı tamaşanın afişası



Abdulla Şaiqin «Nüşabə» pyesi tamaşasından səhnə

"Şaiq kimi böyük bir simanın Gənc Tamaşaçılar Teatrına gəlməsi nəinki teatrın repertuarında böyük dönüş yaratdı, hətta istedadlı bəstəkar və rəssamların teatrımıza cəlb edilməsi işinə səbəb oldu."

**Xalq artisti Kazım Ziya**



Abdulla Şaiqin «El oğlu» pyesindən bir səhnə



Abdulla Şaiqin əsərlərinə çəkilmiş illüstrasiya







Abdulla Şaiqin əsərlərinə çəkilmiş illüstrasiya



Teatr həyatı.
Abdulla Şaiq aktyorlar arasında













Abdulla Şaiqin teatr tamaşalarından səhnələr













Abdulla Şaiqin kitabları




Abdulla Şaiqin nəşr edilmiş kitablarından




Abdulla Şaiqin tərcümə etdiyi əsərlər







Ülkər Talıbzadə

"Kamal Talıbzadə ailəsinə, atasına, anasına son dərəcə bağlı olan bir insan olub. O, valideynlərini yüksək qiymətləndirir, dəlicəsinə sevirdi. Anası Şahzadə xanımın atasının diliynən "Dərbənd gözəli deyə xatırlayırdı. Kamal Talıbzadə ata-anasının münasibətləri haqda tez-tez danışırdı: "Bizim ailə çox xoşbəxt olub. Çünki deyirlər "ərvadla ərin xəmiri bir yerdə yoğrulub". Bunları bir-birindən ayrı heç təsəvvür edə bilmərəm. Olub ki, atam arada bir ay gedib sanatoriyaya. Bir ay anam bacımı götürüb gedirdi Şəkiyə. Siz atamın anama yazdığı məktubları oxusanız heyran qalarsınız. Onların həyatı mənim gözümün qabağındadır. Bunların hamısını qələmə alıb, qovluqlara toplayıb üstünü yazmışam. İçərisində atamın anama yazdığı şeirləri də var."

**Ülkər Kamal qızı**



Kamal Talıbzadə atası Abdulla Şaiqlə

«Mənin ilk ən böyük müəllimim atam Abdulla Şaiq olmuşdur. Elə bil lap uşaqlığımdan onun genlərinin, ruhunun damarlarımda, qanımda cərəyan etdiyini duymuşam; Bəzən elə olub ki, aynaya baxanda elə bilmişəm ki, atamla üz-üzə dayanmışam, elə bilmişəm ki, gözlərimin düz içinə baxır, diksinmişəm. Görünür son vaxtlarda atamı görənlərin, tanıyanların «Elə bil Mirzəni itələyib lap yerində dayanmısan» – deməleri də boş-boşuna deyil, əgər belədirsə taleyimdən razıyam».

***Tərcümeyi-halından.***
***Əlyazması K. Talıbzadənin şəxsi arxivindədir***







Kamal Talıbzadə–
məktəb illəri



Abdulla Şaiqin övladları
(soldan) Kamal, İldırım və Gülbəniz



Kamal Talıbzadə həyat yoldaşı Rəfiqə xanım və uşaqları ilə



Kamal Talıbzadə
filologiya elmləri doktoru, professor

«...Müasir tənqid və ədəbiyyatşünaslığımız ədəbi həyatın, canlı ədəbi prosesin ayrılmaz, üzvi bir sahəsidir, indi o, əvvəlki dövr və illərə nisbətən daha mürəkkəb şəkil almış, daha çətin vəzifələri icra etməyə başlamışdır. Bugünkü bədii tənqid ədəbi prosesə güclü ideya-estetik təsir göstərir, əldə edilən nailiyyətləri möhkəmlətməyin, inkişaf etdirməyin elmi-nəzəri əsaslarını yaradır; başqa sözlə, müasir adamın fikri, mənəvi təkmilləşməsində bədii ədəbiyyatla yanaşı, məfkurəvi tərbiyə işi aparır. Ədəbiyyatın hər hansı janrı kimi bədii tənqid əsərində də müəllifin həyata münasibəti öz ifadəsini tapır, onun mövqeyi, dünyagörüşü, ictimai-siyasi baxışları təbliğ edilir, nəyə rəğbət bəslədiyi, nəyə nifrət etdiyi ifadə olunur. Tənqidin də ədəbiyyat kimi predmeti insan, onun ictimai həyatıdır... zəmanəmizdə tənqidin əhatə etdiyi məzmun xeyli zənginləşmiş, mürəkkəbləşmişdir».

**Kamal Talıbzadə**
***"Ədəbi irs və varislər" kitabından***







Kamal Talıbzadə
istirahət zamanı ailəsi ilə



Abdulla Şaiqin ev
muzeyində



Kamal Talıbzadə bacısı Gülbəniz və qardaşı İldırımla.
1949-cu il



Kamal Talıbzadə - 40-cı illər

«Tənqid nədir? Tənqid—ədəbi prosesin ayrılmaz tərkib hissəsidir; o, ədəbiyyatı izah edən və qiymətləndirən yaradıcılıq aktıdır. Tənqid elə bir amildir ki, bunsuz ədəbi prosesi təsəvvür etmək qeyri-mümkündür. Tənqidi ədəbiyyatın özü, yaradıcılıq prosesinin özü doğurmuşdur. Tənqid ədəbiyyatın çox çətin, geniş dünyagörüş, yüksək nəzəri hazırlıq və mədəniyyət tələb edən bir sahəsidir. Bunu nəzərə almadıqda tənqid ədəbi prosesdə zəifləyir, səthiləşir... Nəzəri hazırlıqsız, analitik təfəkkürsüz tənqid onun üzərinə düşən vəzifəni icra etməkdə acizdir. Bu vəzifə isə, ilk növbədə, bədii əsəri onun öz spesifikasından çıxış edərək təhlil etməkdən ibarətdir. Tənqid bədii əsərə, hər şeydən əvvəl, bədii təfəkkürün məhsulu kimi qiymət verməlidir. Sənətin spesifik xüsusiyyətlərini, gözəllik hissini, onun emosional təsir gücünü göstərməyən, bədii əsərdən məzmunla formanın üzvi bir vəhdəti kimi danışmayan tənqid, əlbəttə ki, həqiqi tənqid deyildir».

**Kamal Talıbzadə**







«Tənqid yaradıcılıqdır, ancaq elmi yaradıcılıqdır. Hər elmin özünəməxsus nəzəriyyəsi olduğu kimi tənqidin də elmi, nəzəri prinsipləri vardır. Bunsuz onun bir elm kimi inkişafını təmin etmək olmaz. Bədii əsər haqqında hamı peşəsindən asılı olmayaraq hər vətəndaş fikir söyləyə bilər. Bu olur—adicə rəy, mülahizə. Ancaq tənqidçi bədii əsəri mövcud nəzəri prinsiplər əsasında təhlil edir. Bu nəzəriyyəyə dərindən yiyələnmədən bədii əsəri müasir estetik tələblər səviyəsində təhlil etmək qeyri-mümkündür. Bu baxımdan mənə elə gəlir ki, müasir tənqidimiz qənaətbəxş vəziyyətdədir. Bədii təhlilin tələbləri ilə ayaqlaşan tənqidçilərimiz var. Əgər belə tənqidçiərimiz varsa, onun gələcəyinə də ümidlə baxmaq lazımdır. Tənqidə ümid verən gənclər gəlir, onların varlığı gələcəyə ümidlə baxmağa əsas verir...

Bir həqiqəti etiraf etmək lazımdır: indiki mərhələdə zəif, boz, keyfiyyətsiz bədii əsərləri tənqid etməyin bir çox obyektiv çətinlikləri meydana çıxmışdır. Bu həqiqətdir ki, tənqidimiz əvvəlki mərhələlərə nisbətən öz tənqidi kəsərini, sərtliyini itirmişdir. Səbəblər isə çoxdur, ədəbi prosesin daxili strukturu ilə tanış olanlar üçün bu gizli bir sirr deyildir.

Zəif və boz əsərlərin nəşrinə mane olmaq üçün başqa yollar da vardır. Bu yollardan biri—ən yaxşı, ümumi rəğbətlə qarşılanan bədii əsərləri seçib, fərqləndirib onları yüksək nəzəri səviyyədə təhlil etmək, tənqidin diqqətini bu əsərlər ətrafında cəmləşdirmək, ədəbi-ictimai fikri bu əsərlərə doğru yönəltmək. Məncə indiki şəraitdə—tənqidçidlərin yazıçılarla açıq ədəbi «döyüşə» girməyi çətinlik çəkdikləri bir vaxtda –bu yol da münasib çıxışlardan biridir—yəni yüksək ideya-bədii tələb meyarı yaratmaq yolu. İctimai zövqü belə yüksək estetik meyar ilə tərbiyə etmək yolu ilə də zəif əsərlərə atəş açmaq, onları sıxışdırmaq, belə əsərlərin zövqlərə təsirini zəiflətmək və yayılmasının qarşısını almaq olar.

Ancaq təəssüflə deməliyik ki, müasir tənqid bu sahədə də acizlik göstərir, bədii nailiyyətlərimiz lazımi miqyasda təbliğ olunmur. Halbuki, tənqidin bu keyfiyyətinə hazırda böyük ehtiyac vardır».

**Kamal Talıbzadə**



Kamal Talıbzadə, Əziz Mirəhmədov, Kamran Məmmədov. 50-ci illər

«XX əsrin əvvəllərində yeni əqli intibah dövrünə qədəm qoymuş cəmiyyətimiz hər şeyə olduğu kimi özünün mənəvi vəziyyətinə də, ədəbiyyata da tənqidi münasibət bəsləməyə ehtiyac hiss edirdi. Cəmiyyətin bütün sinif və zümrələrində belə bir ümumi fikir yaranmışdı ki, artıq tənqidsiz keçinmək mümkün deyil, hər şeyə tənqidi yanaşıb onun yaxşı və pis tərəflərini meydana çıxarmaq lazımdır. Tənqidsiz müasir ədəbiyyat irəli gedə bilməz.

Tənqidçi birinci növbədə həyatşünas olmalıdır, həyat haqqında öz fikri olmayan tənqidçinin ədəbiyyat barəsində qənaəti ola bilməz».

**Kamal Talıbzadə**



Kamal Talıbzadə

"XX əsr Azərbaycan ədəbi tənqidi» əsərində Kamal Talıbzadə əsrimizin əvvəllərində ədəbi həyatın müstəqil bir sahəsinə çevrilən ədəbi tənqidin ilk tarixini yaratmışdır."

**Mir Cəlal Paşayev,**
***Xalq yazıçısı.***
***1965-ci il***





«Əziz Kamal! «XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidi» adlı elmi-tədqiqat əsərini gec də olsa oxuyub qurtardım. Əlbəttə, mən bunu iki-üç günə də sənə qaytara bilərdim, onda gərək o tərəf-bu tərəfini vərəqləməklə kifayətlənə idim. Lakin sənin toxunduğun məsələlər və ümumən material mənim üçün də çox maraqlı olduğundan mümkün qədər diqqətlə oxumağa çalışdım. On gün xəstə olub yatağa düşməyim də əsəri tez qaytarmağıma mane oldu. Bu üzrxahlıqdan sonra, deyə bilərəm ki, sən yaxşı əsər yazmısan, çox faydalı iş görmüsən. Bu əsəri oxuyan hər kəs görəcəkdir ki, Mirzə Fətəlidən sonra Azərbaycan xalqının tənqidi fikri necə zəngin və maraqlı bir inkişaf yolu keçmişdir, estetikanın və bədii yaradıcılığın necə vacib, necə böyük məsələlərini həll etməyə çalışmışdır. Sən çox yaxşı və çox düzgün etmisən ki, daima elmi tədqiqatı XX əsr Azərbaycan realizminin xüsusiyyətlərini müəyyənləşdirmək istiqamətində aparmısan.

Sənin əsərinin ən qiymətli cəhəti mən onu hesab edirəm ki, ədəbi-bədii fikrimizin müəyyən (və maraqlı) bir dövrdəki inkişafı ardıcıl surətdə diqqətli tədqiq olunmuş, sistemləşdirilmişdir. Nəticədə elə zəngin, elə əhəmiyyətli bir mənzərə yaranmışdır ki, adamın ürəyi qürurla dolur. Abdulla Suru və Seyid Hüseyni isə bizim üçün tamamilə yenidən kəşf etmisən, nə qədər maraqlı və qiymətli fikirlər söyəmisən.

Sənin əsərinin dediklərimdən daha çox məziyyətləri var, yəqin ki, sənin rəsmi opponentlərin və elmi şuranın üzvləri onların üzərində daha müfəssəl dayanacaqlar.

Ümumən, əzizim Kamal, səni təbrik edirəm, nəhəng əmək sərf etmisən, çox gözəl iş görmüsən, qiymətli əsər yazmısan, müvəffəqiyyətlə müdafiə edəcəyinə əminəm.

***Məktubun əsli K.Talıbzadənin***
***şəxsi arxivindədir.***
***1965-ci il***

"Azərbaycan ədəbiyyatşünaslıq elminin canlı klassikisiniz və artıq həmin ədəbiyyatşünaslığın mühüm bir sahəsinə çevrilmiş tənqidşünaslıq məktəbinin əsasını qoymusunuz. Sizin elmi əsərləriniz Azərbaycan ictimai fikrinin tədqiqində və inkişafında ciddi rol oynamışdır. Siz əslində müasir ədəbiyyatşünas və tənqidçilərimizin böyük bir qisminin, o cümlədən də mənim müəllimim olmusunuz. Sizin təmiz, alicənab və xeyirxah şəxsiyyətiniz də yaradıcılığınız kimi Abdulla Şaiq mənəviyyatının, əhvalının və ziyalılığının təbii bir davamı və inkişafıdır».

**Mirzə İbrahimov, akademik.**
***K.Talıbzadənin 75 illik yubileyi münasibətilə göndərilmiş teleqram.***
***1998-ci il.***
***(Teleqramın əsli K.Talıbzadənin şəxsi arxivindədir.)***



Kamal Talıbzadə
Abdulla şaiqin ev muzeyində

«XX əsr Azərbaycan ədəbi tənqidi» monoqrafiyası barədə müsahibələrinin birində (1985) müəllif deyir: «Bu kitab mənə təkcə ona görə əziz deyil ki, doktorluq dissertasiyamla əlaqədardır. Bir də ona görə mənim üçün doğma və qiymətlidir ki, o, hələ tələbəlik dövründən başladığım tənqidi fikir sahəsində 25 ilə yaxın apardığım tədqiqatlara bir növ yekun vurdu, təsdiq etdi ki, mən öz axtarışlarımda və ədəbiyyatşünaslığımızda tutduğum yeni istiqamətdə yanılmamışam. Bu elə bir elmi sahədir ki, onu gələcəkdə də davam etdirmək mümkündür. Elə belə də oldu. Bundan sonra yazılarımın, kitablarımın əksəriyyəti bu mövzuya həsr olunmuşdur».

**Kamal Talıbzadə**







(soldan sağa) Nəcəfqulu, Adil Cavadlı, Kamal Talıbzadə,
Vəliyulla Rüstəmov, Əhəd Hüsyenov (40-cı illər)

«Tənqidçi nadir istedada, gözəlliyi, sənəti duya bilən estetik hisslərə, ədəbiyyatı sevən böyük bir qəlbə malik olmalıdır. Bütün bunlarla yanaşı, həqiqi tənqidçi dövrünün ən irəlidə gedən, geniş dünyagörüşə sahib bir adamı olmalı, dövrün hakim görüşlərini izah və inkişaf etdirməyi bacarmalıdır. Ancaq bu halda o, ədəbiyyata doğru istiqamət verər, tənqidi həqiqi nəzəri yüksəkliyə qaldıra bilər... Orada ki cəsarət yoxdur, orada həqiqi ədəbi tənqid də yoxdur».

**Kamal Talıbzadə**



Kamal Talıbzadə Yazıçılar İttifaqında rəhbəri olduğu tənqid bölməsinin növbəti iclasında (sağdan ikinci). 1958-ci il



Kamal Talıbzadə Əlaqələndirmə Şurasında: (soldan sağa) Mirzağa Quluzadə, Məmməd Arif, Mir Cəlal, Həmid Araslı, Məmmədhüseyn Təhmasib. 1968-ci il.







Kamal Talıbzadə Elmi şurada çıxış edərkən



Kamal Talıbzadə MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları ilə (60-cı illər).



Kamal Talıbzadə rəhbəri olduğu «Tənqid tarixi və nəzəriyyəsi» şöbəsinin əməkdaşları arasında. 1982-ci il.



AMEA-da Kamal Talıbzadənin 80 illik yubileyi: (soldan sağa) Polad Bülbüloğlu, Kamal Talıbzadə, Ağamusa Axundov. 2003.







Kamal Talıbzadə Abdulla Şaiqin Mənzil muzeyində ədəbiyyatçılarla. 2004-cü il



Kamal Talıbzadə



Kamal müəllim və Rəfiqə xanım. 1998-ci il



Azərbaycan EA-nın
Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları







Kamal Talıbzadə iş otağında. 70-ci illər.



Kamal Talıbzadə, Aygun Gardiner və Jamie Gardiner.
1999-cu il.



Kamal Talıbzadə, Rəfiqə xanım və Ülkər İsayeva.
1999-cu il



Kamal Talıbzadə, Rəfiqə xanım və Hamlet İsaxanlı.
1998-ci il







Kamal Talıbzadə

«...Kamal Talıbzadə Azərbaycan ədəbi tənqidinin ilk sistemli elmi tarixinin yaradıcısıdır... Biz onu müasir ədəbi tənqidi prosesin ən yaxşı hadisələrinin və ən perspektivli təmayüllərinin həmişə ən ardıcıl qayğıkeşi, etibarlı müdafiəçiləri sırasında görməyə adət etmişik».

**Yaşar Qarayev, professor**

"Dağıstan ədəbiyyatşünasları Kamal Abdulla oğlunun bizim respublikamız üçün kadr hazırlığına, tədqiqatlarımızın təsdiqi və qiymətləndirilməsinə göstərdiyi böyük və təmənnasız köməyi minnətdarlıqla qeyd edir. Bu köməklik bizim üçün əvəzsizdir".

**S.M.Xaybullayev, professor**












«...Şaiq XX əsr Azərbaycan ədəbi-bədii fikrini nura boyayan ədəbi məhəbbət çırağıdır».



A.Şaiqin ailəsinə məxsus qədim divar saatı 1959-cu il iyulun 24-də ədibin vəfat etdiyi anda dayandırılıb



A.Şaiqin böyük qardaşı Yusif Ziyanın guşəsi

























## ŞAİQANƏ YAD ET...





Dünən Azərbaycanın ədəbi-ictimai fikir tarixində maarif və mədəniyyət xadimi, şair nasir, dramaturq, ədəbiyyatşünas, tərcüməçi kimi tanınan Abdulla Şaiq Talıbzadənin mənzil-muzeyində «Abdulla Şaiq və ədəbi mühiti» mövzusunda ədəbi-bədii tədbir keçirildi.

Tədbiri Abdulla Şaiq mənzil-muzeyinin elmi işçisi Arzu Hacızadə açdı. O, böyük bir yazıçının, tariximizə adı əbədi həkk olunan dahi bir sənətkarın mənzil-muzeyinə toplaşanları ürəkdən salamladı və qeyd etdi ki, bu nəcib və xeyirxah insan az vaxt içində ictimai-ədəbi mühitə, Nəriman Nərimanov, Əlibəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Əbdürrəhimbəy Haqverdiyev, Firidunbəy Köçərli, Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Süleyman Sani Axundov, Seyid Hüseyn və başqaları kimi dövrün məşhur ədəbi şəxsiyyətləri ilə tanış olmuş, taleyini ömürlük ədəbiyyata, məktəbə və maarif işinə sərf etmişdir.

Sonra Səməd Vurğunun ev-muzeyinin direktoru Aybəniz Vurğunqızı, Yusif Çəmənzəminlinin oğlu Orxan Çəmənzəminli, N.Nərimanov ev-muzeyinin elmi işçisi Rəna Qəhrəmanova, Həbibbəy Mahmudbəyov adına 25 saylı elmi-texniki liseyin dil-ədəbiyyat müəllimi Ellada Ramazanova Abdulla Şaiq mənzil-muzeyinin elmi işçisi, sənətşünaslıq namizədi Minəxanım Əsədli, C.Məmmədquluzadə ev-muzeyinin elmi işçisi Yeganə Məmmədova, Üzeyir Hacıbəyov ev-muzeyinin ekspozisiya şöbəsinin müdiri Gülnarə Əsgərova və başqaları Abdulla Şaiqlə bağlı öz xatirələrini danışdılar.

Xalq şairi Gülhüseyn Hüseynoğlunun, İslam Səfərlinin Abdulla Şaiqə həsr etdikləri şeirlər oxundu. Həbibbəy Mahmudbəyov adına liseyin şagirdlərinin ifasında Abdulla Şaiqin şeirləri dinlənildi. İştirakçılar ev-muzeyini ziyarət etdilər, xatirəyə dönən eksponatlarla tanış oldular.

**Məhəmməd Vəliyev,**
**«Respublika»**

# Abdulla Şaiqin mənzil-muzeyi qaçqın şəhərciyində




Dağlıq Qarabağ uğrunda döyüşlər haqqında bir neçə kitab müəllifiyəm. Şəhidlər haqqında da kitab yazmışam. Doğma yurdundan didərgin düşənlər haqqında da nəsə yazmaq istədim. Şəhərdə bir neçə qaçqın ailəsi ilə tanış olmuşdum. Lakin bununla kifayətlənə bilmədim. Qaçqın şəhərciyinə getmək istədim. Cəbrayıl rayonunun qaçqınları ilə görüşə getdim. Görüş mənə də, qaçqınlara da xoş təsir bağışladı. Eyni dərdi, dərdin ağrılarını birlikdə yaşadıq. Cəbrayıl Rayon İcra hakimiyyətinin başçısı Mahmud Quliyev qeyd etdi ki, bu gün qaçqın şəhərciyində təhsil alan şagirdlərin dünyagörüşlərinin genişləndirilməsinə, onların klassik Azərbaycan ədəbiyyatının nümayəndələrinin həyat və yaradıcılığı ilə daha yaxından tanış olmasına böyük ehtiyac duyuruq. Məş işlədiyim Abdulla Şaiqin mənzil-muzeyini xatırladım. Burada Cəbrayıl rayonu 5 saylı qəsəbənin 10 saylı orta məktəbində muzeyimizin dəstəyi ilə görkəmli Azərbaycan ədibi Abdulla Şaiqə həsr edilmiş sərgi-guşə təşkil etməyi məsləhət gördüm. Niyə məhz Abdulla Şaiq? Çünki böyük ədibin yaradıcılığının mühüm hissəsi uşaqlara, yeniyetmələrə və gənclərə həsr edilib. Digər tərəfdən muzeyin direktoru Rəfiqə Talıbzadənin bu təklifi məmnunluqla qəbul edəcəyinə inanırdım.



Sərgini necə təşkil etmək haqqında çox götür-qoy etdik. Həm Rəfiqə Talıbzadə, həm də muzeyin baş mühafizi Ülkər Talıbzadənin məsləhəti ilə Abdulla Şaiq haqqında ümumi rəy yaradacaq eksponatları topladıq; ailə albomundan nadir fotoşəkillər, Abdulla Şaiqin səs yazısı olan audio kasset, ədibin kitabları, mənzil-muzeyinin bukleti və s.





Bu yaxınlarda məktəbdə yaranmış sərgi-guşənin açılışına həsr edilmiş tədbir həyata keçirildi. Tədbir iştirakçılarını eksponatlarla tanış etdikdə Abdulla Şaiq haqqında başqa ədiblərin fikirlərini də çatdırdım. İstər şagirdlər, istərsə də müəllimlər məlumatları maraqla dinlədilər. Bu tədbir Abdulla Şaiqin timsalında klassiklərimizə sayğı kimi qəbul edilməlidir. Sevinirəm ki, həmin gün Abdulla Şaiqi hamı «Şaiqanə yad etdi».

Sərginin açılış günündə Azərbaycan Respublikası Dövlət Qaçqın Komitəsinin Cəbrayıl rayonu üzrə sektor bölməsinin müdiri Musa İsgəndərov, Cəbrayıl rayonu 10 saylı məktəbin direktoru Məhəmmədəli Mehdixanov, məktəbin müəllimlərindən Fərhad Mehdiyev, Mənsurə Qarayeva, Rayifə Muradova çıxış etdilər. Şagirdlərdən Zeynəb Balakişiyeva, Şəbnəm Şahverdiyeva, Elvira Heydərova, Ülviyyə Əhmədova, Əsmər Telmanzadə Abdulla Şaiqin şeirlərini söylədilər.

...Doğrudur, şagirdlər Abdulla Şaiq haqqında müəyyən məlumatlara malik idilər. Bu tədbir isə onların biliklərini daha da dərinləşdirdi. Qaçqın şəhərciklərinin digər mədəni-maarif ocaqlarında da belə sərgilərin təşkil edilməsi böyük pedaqoji uğur olardı.

**Arzu Hacızadə**




Teymur Əhmədov

# ABDULLA ŞAİQ

## Kitab-albom

Bakı - 2009

Layihənin rəhbəri
ƏBÜLFƏS QARAYEV

Elmi məsləhətçilər
SEVDA MƏMMƏDƏLİYEVA
LƏTİFƏ MƏMMƏDOVA

Redaktor
ÜLKƏR TALIBZADƏ

Yığılmağa verilmişdir: 08.09.2009
Çapa İmzalanmışdır: 14.10.2009
Format 60 x 84 1/8
Şərti çap vərəqi 15.
Tiraj 500

Kitab «İnkişaf» Şirkəti MMC-nin mətbəsində
çap edilmişdir.

Ünvan: Xətai rayonu, Telnov küçəsi 3.
Tel: 562-83-03, 563-54-42